RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 230 (8823) BAZAR, 24 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İşıqlı gələcəyə yol açan Qələbə

Qafqaz tarixən igid, mərd insanların məskəni olub. Bu torpaqlarda hətta yeri gələndə düşmənə də alicənab münasibət göstərilib. Onun ləyaqəti alçaldılmayıb. Savaşı, adətən, döyüş meydanında aparmağa üstünlük verilib. Düşmənin tökdüyü nahaq qanın qisası meydanda alınıb. Mərd sərkərdələr həmişə çalışıblar ki, orduların üz-üzə gəlməsindən günahsız insanlara, qadınlara, uşaqlara, yaşlılara xətər dəyməsin. Silahını atıb aman istəyən düşmən əsgərinin belə həyatı bağışlansın.

Müharibənin aparılması qaydaları ilə bağlı indi beynəlxalq konvensiyalarda müvafiq müddəalar təsbit olunub. Dövlətlər, ordular qarşısında müəyyən şərtlər müəyyənləşdirilib. Bütün bunların çoxu iki dünya müharibəsinin baş verdiyi ötən əsrdə bəşəriyyətin ümumi narahatlığı kimi formalaşıb. Amma bu müddəaların formalaşmasından yüz illər əvvəl də Azərbaycan sərkərdələri, Qafqazda hökmranlıq edən əcdadlarımız hərbi bu qaydalarla, əxlaq çərçivəsində aparardılar. Ən kəskin döyüşlərdə belə şərəf və ləyaqəti, comərdlik prinsipini öndə tutardılar.

Tarixi qələbəmizlə başa çatmış 44 günlük Vətən müharibəsində də Azərbaycan ulularımızın bu mənəvi mirasına sadiqlik göstərdi. Azərbaycan Ordusunun Ali Baş Komandanı, Prezident İlham Əliyevin göstərişlərinə uyğun olaraq düşmənin heç bir mülki obyekti hədəfə alınmadı. Ölkəmiz tətbiq etdiyi innovativ silahlarla XXI əsrin müharibəsini apardı və hərbi əməliyyatları dinc əhaliyə, mülki insanlara ziyan vurmadan necə həyata keçirməyin mümkünlüyünü bütün dünyaya göstərdi. Gəncəni, Tərtəri, Bərdəni, Goranboyu, Mingəçeviri, Naftalanı və cəbhə xəttindən xeyli uzaq digər yaşayış məntəqələrimizi ağır artilleriya atəşinə tutan düşməndən fərqli olaraq eyni cür davranmadı. Halbuki ordumuzdakı müasir silahlarla bundan qat-qat artığını edə bilərdik. Bununla belə, Azərbaycan bu cür namərd davranışı özünə əsla rəva görmədi. İtkilərimizin qisası savaş meydanında alındı. Ordumuzun gücü qarşısında qaçıb canını qurtarmağa çalışan, silahını atıb təslim olan, əsir götürülən erməni hərbçilərinə də yaşamaq, öz yanlışlarını anlamaq şansı verildi. 44 günlük müharibə gedişində Ermənistan ordusunda on mindən çox fərarinin olması erməni cəmiyyətindəki, düşmən ölkənin ordusundakı dərin mənəvi-psixoloji sarsıntını göstərirdi. *"Onlar görürdülər ki, bizim qabağımızda dura bilmirlər. Görürdülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir.*

Ardı 3-cü səh.





## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Zəngilan rayonunun Ağalı kəndindən fotolar paylaşıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Zəngilan rayonunun Ağalı kəndindən fotolar paylaşıb.

AZƏRTAC

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Zəngilan səfərindən görüntü paylaşıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Zəngilan səfərindən görüntü paylaşıb.



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "İşğaldan azad olunmuş torpaqlarda xatirələr. Kədər və sevinc. Allah xalqımızı qorusun!"

## İlham Əliyev Qubadlını bizə qaytardı

Vətən müharibəsinin hər günü 30 ilə yaxın işğal altında qalan kənd və şəhərlərimizin azad edilməsi ilə əlamətdar oldu. Cəbrayılın, Suqovuşanın, Hadrutun, Füzulinin, Zəngilanın düşmən tapdağından azad edilməsinin ardınca növbə Qubadlıya çatdı.

Ötən il oktyabrın 25-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Tviter" səhifəsində növbəti qələbə müjdəsini xalqımıza çatdırdı: "Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Sabah Qubadlının işğaldan azad olunmasının bir ili tamam olur. Bu münasibətlə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşərək, onların təəssüratlarını öyrəndik.

### "Ən böyük arzum Qubadlıya qayıdaraq orada yaşamaqdır"

Azərbaycanın Milli Qəhrəmanı, doğulduğu Qubadlı uğrunda ötən il oktyabrın 22-də gedən döyüşlərdə şəhid olan polkovnik Şükür Həmidovun atası **Nəriman Həmidov** deyir ki, Qubadlıda beş gün yaşamaq, kənarda 50 il yaşamaqdan üstündür:

Ardı 3-cü səh.

## Zəngilanın elektrik enerjisi infrastrukturu da zəngin olacaq

Şuşada, Suqovuşanda, Cəbrayılda, Füzulidə, işğaldan azad edilmiş digər ərazilərimizdə qısa müddətdə bir-birinin ardınca enerji obyektləri istifadəyə verilib və onların sayı getdikcə artır. Prezident İlham Əliyev Zəngilan rayonuna növbəti səfəri zamanı burada 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışını edib, Rəqəmsal Yarımstansiyanın təməlini qoyub.

Bütün bunlar sürətlə gedən yenidənqurma işləri sırasında kənd və şəhərlərin elektrik enerjisi ilə təchizatının xüsusi önəm kəsb etdiyini bir daha təsdiqləyir. Elektrik enerjisi, ümumiyyətlə, bir çox digər sahələrin inkişafını təmin edir. Qarabağda və Şərqi Zəngəzurda qurulan enerji infrastrukturu isə, üstəlik, neçə illərdir yurd həsrəti çəkən insanların doğma torpaqlarına qayıtmasını tezləşdirir.

Ardı 4-cü səh.

## Koronavirusun yeni variantı hücuma keçir

### "Delta"nın AY.4.2 ştamı nə qədər təhlükəlidir?

*İndiyədək tibb elmində insana zərər verən 7 koronavirus haqqında məlumat mövcuddur. Bunlar 1960-cı illərin ortalarında ilk dəfə müəyyən olunmuş HCoV-229E alfa koronavirusu, 2004-cü ildə Niderlandda tapılmış HCoV-NL63 alfakoronavirusu, 1967-ci ildə aşkar edilmiş HCoV-OC43 A betakoronavirusu, 2005-ci ildə Honkonqda tapılan HCoV-HKU-1 A betakoronavirusu, 2002-ci ildə qeydə alınmış SARS-CoV-betakoronavirusu, 2015-ci ildə aşkarlanmış MERS-CoV-C betakoronavirusu və 2019-cu ilin axırlarında yeni tip pnevmoniyaya səbəb olmuş COVID-19 tipli SARS-CoV-2 betakoronavirusudur. Sonuncu koronavirus ümumdünya probleminə çevrilərək hələ də davam edir. Bunun nəticəsində bir çox sərhədlər bağlanıb, təcili təhlükəsizlik tədbirləri tətbiq olunub.*



Ardı 6-cı səh.

# Azərbaycan və Monteneqro parlamentləri arasında əlaqələr müzakirə olunub



Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstana işgüzar səfəri çərçivəsində Monteneqro parlamentinin sədri Aleksa Becic ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin daha da inkişafı barədə müzakirələr aparılıb. Yüksəksəviyyəli səfərlərin siyasi münasibətlərimizin inkişafında xüsusi rol oynadığı vurğulanıb.

Söhbətdə Azərbaycanla Monteneqro arasında əlaqələrin inkişafında parlamentlərin rolundan danışılıb, bu sahədə dostluq qruplarının xüsusi əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsi üçün qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, iki ölkə arasında iqtisadi, humanitar, mədəni, turizm və digər sahələrdə əməkdaşlığı genişləndirmək üçün geniş imkanlar var.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri Laçında keçirilən komanda-qərargah təlimini izləyib









Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Laçın rayonunun ərazisində keçirilən komanda-qərargah təliminin gedişini izləyib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov Quru Qoşunlarının təlim qərargahında olub və fəaliyyətlərin təşkilini yoxlayıb.

Sonra nazir səhra şəraitində açılan komanda idarəetmə məntəqəsində komandir və qərargah zabitlərinin xəritə və ərazinin maketi üzərində əməliyyatların aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Qeyd olunub ki, dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimdə əsas diqqət komandir və müvafiq vəzifəli şəxslərin bilik səviyyəsinin, eləcə də idarəetmə və çevik qərar qəbuletmə vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.

Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınaraq müasir idarəetmə üsullarının tətbiq edilməsi ilə keçirilən təlimdə digər qoşun növü bölmələri ilə qarşılıqlı əlaqədə tapşırıqlar icra edilib.

Təlimin planına uyğun olaraq bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarını tutub və qruplaşmalar yaradılıb. Müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı tapşırıqların şəxsi heyət tərəfindən gizli və operativ yerinə yetirilməsi məşq etdirilib.

Müdafiə naziri qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

# Naxçıvan Qarnizonu Qoşunlarında kursları bitirən gənclərə sertifikatlar təqdim edilib

Naxçıvan Qarnizonu Qoşunlarında gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən gənclərə sertifikatlar təqdim edilib.





Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, müxtəlif hərbi ixtisaslar üzrə peşəkar zabitlər tərəfindən yetişdirilən kursantlar xidmət yerlərinə təntənəli mərasimlə yola salınıblar.

Mərasimdə şəhidlərimizin əziz xatirəsi yad edildikdən sonra Dövlət Himnimiz səsləndirilib.

Çıxış edənlər kurslar zamanı 44 günlük Vətən müharibəsində qazanılmış təcrübə ilə keçirilən məşğələlərin, ümumqoşun, ixtisas, fiziki hazırlıq dərslərinin və təlim-atış çalışmalarının şəxsi heyətin peşəkarlaşmasında mühüm rol oynadığını diqqətə çatdırıblar.

Sonra Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb.

Təbrik oxunduqdan sonra məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

# İstanbulda Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib




Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) mediaforumu çərçivəsində Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altunun rəhbərliyi ilə keçirilən görüşdə iki qardaş ölkənin media və kommunikasiya sahələri üzrə rəsmi şəxslərindən ibarət nümayəndə heyətləri iştirak ediblər.

"Bir millət, iki dövlət" şüarı ilə keçirilən iclasda iki qardaş ölkənin kommunikasiya sahəsində əlaqələrinin yaxşılaşdırılması məqsədilə ənənəvi və rəqəmsal media, strateji kommunikasiya, eləcə də ictimai diplomatiya sahələrində əməkdaşlıq və koordinasiyanın gücləndirilməsi, dezinformasiyaya qarşı birgə mübarizə kimi məsələlər müzakirə olunub. Türkiyə-Azərbaycan Ortaq Media Platformasının strukturu ilə bağlı məsələlərin də müzakirə edildiyi tədbirdə "ictimai diplomatiya", "beynəlxalq media", "strateji kommunikasiya", "təhsil", "qanunvericilik və tənzimləmə", "rəqəmsallaşma və beynəlmiləlləşmə" komitələrinin yaradılması ilə bağlı qərar qəbul edilib.

İclasda çıxış edən Fahrettin Altun bildirib ki, 2020-ci il dekabrın 10-da prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ilə rəsmiləşdirilən Ortaq Media Platforması iki ölkə arasında son illər daha da inkişaf edən əlaqələrin media və rabitə sahələrində də tətbiqində çox dəyərli bir addım oldu.

F.Altun qeyd edib ki, Qarabağın işğaldan azad edilməsi zamanı kommunikasiya və media sahələrində də sıx əməkdaşlıq əhəmiyyətli rol oynadı. Media, kommunikasiya, xalq diplomatiyası, həmçinin dezinformasiya ilə mübarizə istiqamətləri Türkiyə-Azərbaycan əməkdaşlığında önəmli yer tutur. Ortaq Media Platforması Türkiyə və Azərbaycan mediasının qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərməsi, iki ölkə ictimaiyyətinin effektiv şəkildə məlumatlandırılması, qarayaxma kampaniyaları ilə mübarizədə ortaq strategiyaların hazırlanması baxımından böyük bir addımdır.

Azərbaycanın Vətən müharibəsi zamanı iki qardaş ölkə arasında kommunikasiya sahəsində formalaşan əməkdaşlıqdan bəhs edən Hikmət Hacıyev bu əlaqələrin Birgə Media Platforması vasitəsilə rəsmiləşdirildiyini diqqətə çatdırıb. Media və komunikasiya sahələrində nümayiş etdirilən həmrəyliyin qısa zaman ərzində uğurlu nəticələr verdiyini söyləyən Prezidentin köməkçisi deyib: "Bu gün liderlərimizin səyləri nəticəsində ən yüksək səviyyəyə çatan Azərbaycan-Türkiyə münasibətlərini qorumaq, daha da inkişaf etdirmək və gələcək nəsillərin yüz illər sonra da davam etdirməsini təmin etmək bizim tarixi borcumuzdur".

Hikmət Hacıyev sosial və beynəlxalq media platformalarında Azərbaycana qarşı aparılan dezinformasiyaya qarşı mübarizədə Türkiyənin təcrübəsindən istifadə ediləcəyini də vurğulayıb.

# Ceyhun Bayramov ilə iranlı həmkarı arasında telefon danışığı olub

Oktyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramovun İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər ikitərəfli münasibətlərin cari vəziyyətinə dair fikir mübadiləsi aparıblar.

Son həftə ərzində baş vermiş inkişafı müsbət dəyərləndirən nazirlər Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşılması ilə bağlı İranın müvafiq qurumlarının yaydığı xəbərdarlığı, eyni zamanda, Azərbaycan tərəfindən 2 iranlı sürücünün buraxılmasını qarşılıqlı müsbət addım kimi vurğulayıblar.

Telefon danışığı zamanı Birgə Hökumətlərarası Komissiyanın, İranın yeni administrasiyası tərəfindən yenilənmiş tərkibdə fəaliyyətinin davam etdirilməsinin əhəmiyyəti ifadə olunub.

Tərəflər bütün fikir müxtəlifliklərinin dialoq vasitəsilə həll edilməsinin vacibliyini qeyd ediblər.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Milli iqtisadiyyatın artım tempi beynəlxalq qurumların proqnozlarını üstələyir

30 illik işğala son qoyan möhtəşəm qələbəmiz artıq bir ildir ki, gələcək iqtisadi uğurlarımızın möhkəm təməli rolunu oynayır. Bu qələbə Azərbaycana iqtisadi islahatları vacib sahələrə yönəltməyə, qazandığımız böyük ruh yüksəkliyi isə bu islahatları daha məzmunlu və daha sürətlə reallaşdırmağa imkan yaradır.

Müxtəlif ranqlı beynəlxalq sorğu agentlikləri, ekspertlər və iqtisadçılar mütəmadi olaraq nailiyyətlərimizi şərh edir, uğurlarımızdan danışırlar.

Beynəlxalq qurumlarla yanaşı, Azərbaycanın özündə yaranan beyin mərkəzləri də araşdırmalarında bu mövzudan yan keçmirlər. Davamlı iqtisadi analizləri ilə ictimaiyyətin diqqətini çəkən beyin mərkəzlərindən ən nüfuzlusu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzidir (İİTKM). Qeyd etmək lazımdır ki, bu beyin mərkəzi Azərbaycan iqtisadiyyatının bütün sahələrini və həmçinin ümumi müqayisəli ciddi analitik analizlərini aparır.

İİTKM-in icraçı direktoru Vüsal Qasımlı sonuncu araşdırmasında iqtisadi artım sürətinin 4,8 faizə çatdığını bildirir.

Belə ki, Azərbaycanın iqtisadi artım tempi aybaay sürətlənir. Onun sözlərinə görə, 2021-ci ilin ilk 9 ayında Azərbaycanda ÜDM-in artım tempi 6,2 faiz artan qeyri-neft sektorunun drayverliyilə 4,8 faiz qeydə alınmışdır: "BVF Azərbaycan iqtisadiyyatının bu il 3 faiz artmasını proqnozlaşdırır ki, bu da əvvəlki proqnozları üstələyir və milli iqtisadiyyata güvənin artmasını göstərir. Lakin milli iqtisadiyyatın artım tempi həm BVF-nin, həm də Dünya Bankının proqnozlarını əhəmiyyətli şəkildə üstələyir. Artıq Azərbaycanda iqtisadi artım tempi "Dünya iqtisadi icmalı"nda Orta Şərq və Mərkəzi Asiya üçün proqnozlaşdırılan 4,1 faizlik həddi üstələyib".

Vüsal Qasımlı bunun əsas səbəbini yüksək sənayeləşmə tempində görür: "Azərbaycanda ÜDM istehsalının 40,1 faizi sənayenin payına düşür ki, bu da orta dünya göstəricisi 24,8 faizdən əhəmiyyətli üstündür. Müqayisə üçün deyim ki, sənayenin ÜDM-də payı Mərkəzi Avropa və Baltik ölkələrində 27,2 faiz, Avrozonada 21,5 faiz və OECD ölkələrində isə 21,1 faizdir. Azərbaycanda sənayenin strukturunda da qeyri-neft-qaz sektorunun xüsusi çəkisi daha sürətlə artır. Azərbaycan dördüncü sənaye inqilabının tələblərinə uyğun inkişaf edir".

V.Qasımlı postkonflikt quruculuğu, həmçinin tədiyyə və icmal büdcə balanslarının profisiti şəraitində makroiqtisadi fundamentalların iqtisadi artımı stimullaşdırdığını qeyd etmişdir: "BVF-nin proqnozlarına əsasən Azərbaycanın cari əməliyyatlar hesabının ÜDM-ə nisbəti 2021-ci ildə 7,8 faiz təşkil etməklə Orta Şərq və Mərkəzi Asiyanın eyniadlı göstəricisi - 1,7 faizdən əhəmiyyətli şəkildə üstün olacaqdır. Proqnozlara görə, Azərbaycan cari əməliyyatlar hesabının ÜDM-ə nisbəti göstəricisinə görə 2021-ci ildə Orta Şərq və Mərkəzi Asiya bölgəsində ilk üçlükdə qərarlaşacaqdır".

Azərbaycan postneft dövrünə hazırlaşsa da, enerji bazarlarında yaşanan problemlərin fonunda neft-qaz ixracatçısı statusunu inamla qoruyur və ciddi təhdidlərlə üzləşmiş Avropanın enerji təhlükəsizliyində rolunu gücləndirir: "Dünyada təchizat zəncirlərində yaşanan problemlərin fonunda Azərbaycanın Şərq-Qərb dəhlizinin üzərində yeni bir arteriyanın - "Zəngəzur dəhlizi"ni gerçəkləşdirməsi təkcə ölkəmizin deyil, regionun iqtisadi artım potensialına töhfə verə bilər".

Xatırladaq ki, İİTKM Azərbaycanda aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli şəkildə əlaqələndirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli fərmanı ilə yaradılmışdır. İİTKM dünyanın tanınmış beyin mərkəzlərindən biri kimi yarandığı 5 il ərzində 50-yə qədər strategiya, proqram, fəaliyyət planı, konsepsiya, strateji yol xəritələri, texniki iqtisadi əsaslandırma və digər sənədlərin hazırlanmasında, habelə Qarabağın reinteqrasiyası üçün lazım olan iqtisadi əsaslandırma prosesində iştirak edərək islahat gündəliyinin formalaşmasına öz töhfəsini vermişdir.

Mərkəzin təhlil imkanlarını artırmaq üçün "EconLAB" iqtisadi təhlil laboratoriyasında Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı, Avropa İttifaqı və SECO-nun dəstəyilə maliyyə proqramlaşdırılması, ümumi tarazlıq, xərclər-buraxılış, ORANİ, mikrosimulyasiya, Xarici Sektorun Qiymətləndirilməsi (EBA-lite) kimi modellər yaradılmışdır. Dünya Bankının regionda uğur hekayəsi kimi təqdim etdiyi İİTKM-də yaradılan monitorinq və qiymətləndirmə institutu bp şirkətinin dəstəyilə www.monitoring.az portalı əsasında rəqəmsallaşdırılmışdır. İİTKM iqtisadi islahatların hazırlanması və həyata keçirilməsi sahəsində dövlət və özəl sektorun dialoqu əsasında qurulan rəqəmsal həll - azranking.az portalının operatorudur. İİTKM-in 40-a yaxın elektron resursu, "İxrac icmalı", "İslahat icmalı" və "Video icmal" kimi xüsusi buraxılışları ilə yanaşı, həm də operativ kommunikasiya siyasəti qeyd edilməlidir. Bu 5 ildə Forbes, Reuters, BBC, Foreign Policy və London Post kimi nüfuzlu dünya nəşrlərində, T20 və Asiya Beyin Mərkəzlərinin İnkişaf Forumu kimi platformalarda, BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa İttifaqı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı kimi nüfuzlu qurumların tədbirlərində ölkəmizi təmsil etmişdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# İlham Əliyev Qubadlını bizə qaytardı

*Əvvəli 1-ci səh.*

"Bir il öncə Qubadlının azad olunmağı bizim rahat nəfəs almağımız, öz arzumuza çatmağımız deməkdir. Qubadlı mənim üçün bel sütunudur. Bu illər ərzində biz Sumqayıtda ancaq doğmalıq gördük, amma göz açıb böyüdüyün, ərsəyə çatdığın ata yurdu başqa aləmdir. Qubadlı mənim üçün hər şeydi".

Nəriman Həmidovun sözlərinə görə, çiynimizdə ağır bir yük vardı. Çünki torpaqlarımız işğal olunmuşdu. Lakin Müzəffər rəhbərimiz İlham Əliyev bu yükü çiynimizdən götürdü, 44 günlük müharibədə bizi qalib xalq etdi.

Bir neçə gün əvvəl Qubadlıya getdiyini deyən Nəriman Həmidov bildirdi ki, qayıdanda oğlu Şükür Həmidovun şəhid olduğu yerdən torpaq götürüb: "Şükür şəhid olanda elə bil ki, bir burulğana düşdüm. Amma xalqımızın qəhrəmanlığı, dəyanəti, bizə göstərilən münasibət, dəfn zamanı Prezidentimizin zəng etməsi məni o burulğandan çıxardı. Ayağımı yerə bərkitməyə sövq etdi. Dövlətimizin, xalqımızın, Prezidentimizin bu münasibəti məni yenidən həyata qaytardı. Prezident İlham Əliyev Şükür Həmidovu 2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq gördü, onun sinəsinə medalı taxdı. Vətən müharibəsindəki şücaətlərinə görə Şükürü ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif etdi".

Nəriman Həmidov deyir ki, ən böyük arzusu Qubadlıya qayıdaraq doğma yurdunda yaşamaqdır: "Allah-taala arzumuza çatdırsın, qayıdaq Qubadlıya. Mən xalqımıza firavanlıq, həmrəylik, Prezidentimizin ətrafında daha sıx səfərbər olmağı arzulayıram".

## "Ordumuz irəlilədikcə səbirsizliklə rayonumuzun azad olunması xəbərini gözləyirdik"

Qubadlı rayonu Hafiz Quliyev adına Çaytumas məktəb-liseyinin direktoru **Şamama Həsənova** bildirir ki, 2020-ci il xalqımızın və dövlətimizin taleyində tarixi bir dövr oldu, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi: "Ötən ilin bu vaxtlarında torpaqlarımızın azad olunduğunu Prezidentimizdən eşitdikcə sevincimizdən, qürurumuzdan yerə-göyə sığmırdıq. Ordumuz irəlilədikcə səbirsizliklə Qubadlının azad olunması xəbərini, Ali Baş Komandanın müjdəsini gözləyirdik. Oktyabrın 25-də Prezident İlham Əliyev səbirsizliklə gözlədiyimiz xəbəri elan edəndə evimizdə hamı sevincdən ağlayırdı. Bu qələbə sevincini bizə yaşadan Ali Baş Komandanımıza minnətdarıq. Torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin ruhu qarşısında baş əyirik, onlara borcluyuq, qazilərimizə şəfa diləyirik".

Şamama Həsənova bildirdi ki, Sumqayıt şəhərində məskunlaşıblar, dövlət tərəfindən hər cür qayğı ilə əhatə olunublar, amma doğma yurd tamam başqadır: "Əminik ki, Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində rayonumuz tezliklə bərpa olunacaq. Qubadlıya qayıdacağım, orada məktəbdə işləyəcəyim günü böyük səbirsizliklə gözləyirəm".

## "Qardaşımın dediyi kimi oldu, sərkərdə gəldi və "dəmir yumruğu" ilə düşmənin başını əzdi"

Birinci Qarabağ müharibəsinin veteranı olan **Gəray Qasımov** Qubadlının Qayalı kəndindədir. 6 qardaş olublar. Onlardan 5-i torpaqlarımızın azadlığı uğrunda Birinci və İkinci Qarabağ savaşlarında iştirak edib. Qardaşlardan Həsənqulu Qasımov (Həsən Qorxmaz) 1992-ci ildə şəhid olub. 1994-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub. Digər qardaş Əhliyyət Qasımov Birinci Qarabağ müharibəsinin iştirakçısı olub, döyüşlərdə sağlamlığını itirməsi səbəbindən bir neçə il əvvəl vəfat edib. Qardaşlardan Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Faiq Qasımov isə həm Birinci Qarabağ müharibəsində, həm Aprel döyüşlərində, həm də İkinci Qarabağ müharibəsində iştirak edib. 2020-ci il sentyabrın 27-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Prezident İlham Əliyevin sərəncamına əsasən, Faiq Qasımova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Gəray Qasımovun sözlərinə görə, qardaşı Həsən Qorxmaz hələ 1992-ci ildə böyük uzaqgörənliklə demişdi ki, nə vaxtsa bu millətin sərkərdəsi gələcək və ermənilər bu xalqın yumruğunu görəcəklər: "Qardaşımın dediyi kimi də oldu, Sərkərdə gəldi və "dəmir yumruğu" düşmənin başını əzdi".

Bütün qubadlılılar kimi Gəray Qasımov üçün də ən doğma yer Qubadlıdır. "İnsan nə qədər gözəl yerlərdə yaşasa da, vətənin yerini heç nə vermir. Qubadlı mənim üçün ən müqəddəs yerdir. Allah doğma yurdumuzu bizə qaytaran Ali Baş Komandan İlham Əliyevi qorusun. Prezidentimiz torpaqlarımızın bütövlüyünü təmin etdi. Allah şəhidlərimizə rəhmət etsin. Ən böyük təsellimiz həm də odur ki, şəhidlərimizin qanı yerdə qalmadı, torpaqlarımız işğaldan azad edildi".

## "Vətən müharibəsi yurd nisgilimizə son qoydu"

Qubadlı rayonu Hafiz Quliyev adına Çaytumas məktəb-liseyinin məzunu olan **Nurlan Pirizadə** 681 balla Bakı Ali Neft Məktəbinə daxil olub. Prezident təqaüdçüsüdür. Deyir ki, Qubadlını görməsə də, ağlı kəsəndən doğma yurd həsrəti ilə yaşayıb: "Qubadlını görməmişəm, amma çox qəribədir ki, oralara qayıtmaq istəyi həmişə mənə hakim olub. Qismət olarsa, gələcəkdə ixtisaslı kadr kimi rayonumuzda fəaliyyət göstərmək istəyirəm".

Əslən Qubadlının Xanlıq kəndindən olan **Əbil Şəfiyev** Bakı Ali Neft Məktəbinin birinci kurs tələbəsidir. Kimya mühəndisliyi üzrə təhsil alır. Onun sözlərinə görə, ailəsinin məcburi köçkün düşdüyünü görməsə də, valideynlərinin hansı çətinliklərlə üzləşdiyini bilir: "Ailəlikcə inanırdıq ki, bir gün Qubadlı azad olunacaq. Hər gün evimizdə Qubadlı barədə söz açılırdı. Oktyabrın 25-də Ali Baş Komandan İlham Əliyev Qubadlının azad olunduğunu elan edəndən sonra yaşadığımız sevinc hissini sözlə ifadə etmək çətindir. Ailəmiz adından bizə bu sevinci yaşatdığına görə Prezident İlham Əliyevə minnətdaram. Allah şəhidlərimizə rəhmət etsin, onların sayəsində torpaqlarımız işğaldan azad olundu".

**Röya Qasımova** da Bakı Ali Neft Məktəbinin birinci kurs tələbəsidir. Ailəsi Qubadlı rayonunun Diləli Müskanlı kəndindən Sumqayıta pənah gətirib. Deyir ki, bütün qubadlılar kimi onun da ailəsinin baş mövzusu həmişə Qubadlı olub: "Mən Qubadlını görməsəm də, həmişə ora getməyi arzulamışam. Qubadlıdan söz düşəndə görürdüm ki, böyüklər çox təsirlənirlər. Vətən müharibəsi valideynlərimin, mənim yurd nisgilimə son qoydu".

## "İlham Əliyev bu qələbə ilə bizim qürurumuzu yüksəltdi"

**Zöhrab Mustafayev** Qubadlı rayonunun Aşağı Xocamsaqlı kəndindəndir. Yeganə övladı Mustafayev Rüfət Vətən müharibəsində şəhid olub. "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib. Zöhrab Mustafayev bildirir ki, tək Qubadlının deyil, işğalda olan bütün torpaqlarımızın azad olunması dövlətimizin böyük uğurudur: "Şəhidlərimizin ruhu rahatdır, çünki torpaqlarımız azad olundu. Vətən müharibəsindəki qələbə bütün şəhid ailələri üçün ən böyük təsellidir".

Bütün qubadlılılar kimi Zöhrab Mustafayevin də ən böyük arzusu doğma yurduna qayıdaraq, orada yaşamaqdır.

"Müharibə günlərində hər gün kənd və şəhərlərimiz azad olunduqca həm sevinirdik, həm də Qubadlının azad edilməsini səbirsizliklə gözləyirdik. İnanırdıq ki, Zəngilandan sonra Qubadlının da azad olunacağı gün uzaqda deyil. Oktyabrın 25-də arzuladığımız gün yetişdi, Qubadlı şəhəri ilə yanaşı, bizim kəndimiz də azad olundu". Bunu isə Qubadlı Ağsaqqallar Şurasının sədri, rayonun Xocahan kəndindən olan **Əvəz Həsənov** bildirdi. Onun sözlərinə görə, həmin gün sevinclərinin hədd-hüdudu yox idi. "Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbə ilə bizim qürurumuzu yüksəltdi, məğlub damğasını üzərimizdən götürdü. İlham Əliyev Qubadlını bizə qaytardı. Allah İlham Əliyevə, Mehriban xanıma kömək olsun. 27 il idi vətənimizdə vətənsiz yaşayırdıq, mənəvi sıxıntı içərisində idik. Amma artıq bunlar geridə qaldı və indi Qubadlıya qayıdacağımız günü gözləyirdik. Bir komamız da olsa, qayıdıb orada yaşayacağıq", - deyə Əvəz Həsənov bildirdi.

## "Bütün şəhidlərimizin ruhu şaddır"

"Vətən müharibəsi xalqımızın qəhrəmanlıq səhifəsidir. Bu müharibədə bizə qələbəni yaşadan Ali Baş Komandan İlham Əliyevdir. Onun müdrik rəhbərliyi sayəsində ordumuz daha qüdrətləndi və torpaqlarımız işğaldan azad olundu". Bu barədə danışan Qubadlı sakini **Eldar Hüseynov** əmin olduğunu bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qubadlı tezliklə bərpa ediləcək, əvvəlkindən də gözəl olacaq.

Eldar Hüseynov onu da dedi ki, "Vətən müharibəsindəki qələbənin qazanılmasında hər bir azərbaycanlının payı var. Eyni zamanda bütün valideynlərin zəhmətini xüsusi qeyd etmək lazımdır. Çünki bizim övladlarımızın bu müharibədə göstərdiyi qəhrəmanlıqlar valideynlərin onlara verdiyi yüksək tərbiyənin nəticəsidir".

Söhbət etdiyimiz Qubadlı sakilərindən **Çingiz Ağayev** Vətən Müharibəsi Qəhrəmanı, şəhid mayor Vüqar Ağayevin kiçik qardaşıdır. Onun sözlərinə görə, 44 günlük müharibədə Prezident İlham Əliyevin "dəmir yumruğ"u düşmənin belini qırdı, ordumuzun qəhrəmanlığı ilə torpaqlarımız azad olundu: "Bizim Xanlıq kəndi istiqamətində də ağır döyüşlər gedib və hərbçilərimiz qəhrəmanlıqlar göstəriblər. Döyüşlərə könüllü yollanan qardaşım Vüqar Ağayev də doğma rayonumuzda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Bu gün onun və bütün şəhidlərimizin ruhu şaddır. Bundan sonra rayonlarımızın azad olunduğu tarixlər əlamətdar günlər kimi qeyd olunacaq. O cümlədən Qubadlının azad olunduğu 25 oktyabr bizim üçün bayram günüdür".

Uşaqlığının Qubadlıda keçdiyini deyən Çingiz Ağayev qeyd etdi ki, mənfur düşmən 27 ildə bu torpaqları dağıdıb, viran qoyub. "Lakin dövlətimizin gücü, Prezidentimizin qətiyyəti sayəsində torpaqlarımızın bərpa ediləcəyi gün uzaqda deyil və əminəm ki, tezliklə doğulduğum Qubadlıya qayıdacağam.

"İlham Əliyev elə bir tarix yazdı ki, nəinki 30 illik müstəqillik, hətta 200 illik tariximizi şərəfləndirdi". Bunu isə **Razim Əliyev** bildirdi. Onun sözlərinə görə, Qubadlı tarix boyu erməni məkri ilə üz-üzə qalıb, lakin Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz düşmənə elə bir zərbə vurdu ki, üstündən minilliklər də ötsə, şanlı tariximizdə yaşayacaq. Razim Əliyevin də ən böyük arzusu doğma yurda qayıtmaqdır. "Mütləq Qubadlıya qayıdacam, 27 il həsrətində olduğum doğma elimdə yaşayacam. Dünyada öz doğma yurdunda yaşamaqdan gözəl heç nə yoxdur".

Qubadlının işğaldan azad olunması Azərbaycan Ordusunun İkinci Qarabağ savaşında keçirdiyi növbəti unikal əməliyyatlardan biri idi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra ordumuzun növbəti istiqaməti Qubadlıya yönəldi. İşğalçı ordu rayonun Xanlıq kəndində və Qubadlı şəhərinin özündə güclü istehkamlar qurmuşdu. Həmçinin yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Amma heç nə Azərbaycan Ordusunun qarşısını kəsə bilməzdi...

İndi Qubadlı azaddır. Qarabağ və Şərqi Zəngəzurun ən gözəl guşələrindən olan Qubadlı da tezliklə bərpa olunacaq, öz yurdlarından köçkün düşmüş insanlar doğma evlərinə qayıdacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# İşıqlı gələcəyə yol açan Qələbə

*Əvvəli 1-ci səh.*

*Mənasız əməliyyatlar həyata keçirir ki, bu əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti faktiki olaraq qurban kimi verilir. On min fərarisi olan ordu, əlbəttə ki, müqavimət göstərə bilməzdi"* - Azərbaycan Prezidenti İlham Əliyev müzəffər ordumuzun Vətən müharibəsinin ilk günlərində azad etdiyi Suqovuşandakı çıxışı zamanı belə dedi və Ermənistanın müharibə canilərini sərt şəkildə ifşa etdi. Vurğuladı ki, şanlı Azərbaycan Ordusu hərbi cinayətkarların qurduğu ordunu diz çökdürdü. Xaraktercə də, həyata keçirdiyi siyasətin dürüstlüyü, prinsiplərinə sadiqliyi etibarilə də əsl Qafqaz sərkərdəsinin ən gözəl xüsusiyyətlərini şəxsiyyətində bir araya gətirən Prezident İlham Əliyev Ermənistandakı bütün ünsürlərə üz tutaraq onları ağıllarını başlarına yığmağa, revanşist düşüncələrdən əl çəkməyə, özlərini yaxşı aparmağa çağırdı. Bununla da Ermənistanın keçmiş prezidenti Sarkisyan kimilərə ərənlik dərsi keçdi, uzun illər ərzində öz siyasi ambisiyaları üzündən milyonlarla insana olmazın iztirablar yaşatmış erməni cəlladlarının mənfur xislətini bir daha ortaya qoydu.

## Yalnız irəli

Sentyarın 27-də Ali Baş Komandanın Ordumuza hücum əmri bütün dünya azərbaycanlılarının illərdən bəri ürəklərində yaşatdıqları arzuya doğru başlanğıc oldu. Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi zamanı hərbi əməliyyatların elə ilk günündə əldə edilmiş nəticələr barədə bəzi təfərrüatları bölüşmüşdü: *"Müdafiə naziri mənə məlumat verdi ki, təmas xəttindəki mövqelərimiz və bəzi yaşayış məntəqələrimiz Ermənistan tərəfindən artilleriya atəşinə məruz qalıb. Adekvat cavab vermək qərara alındı və beləliklə, biz müharibəyə qoşulduq. Məlum oldu ki, bu, labüd idi. Hadisələr çox sürətlə inkişaf edirdi. Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi - Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik".*

Prezident İlham Əliyevin həmin müsahibəsində toxunduğu bəzi məqamlar Azərbaycan Ordusunun müharibənin başlanması gününə nə qədər yüksək peşəkarlıqla hazırlaşdığını, əməliyyat planının zərgər dəqiqliyi ilə idarə olunduğunu göstərir. Bu dövrdə döyüş əməliyyatları zonası yetərincə məhdud olduğundan hərbi əməliyyatların ümumən harada keçiriləcəyinin mütəxəssislər tərəfindən asanlıqla müəyyən edilməsi ehtimalı nəzərə alınıb və aparılan əməliyyatlar planına demək olar ki, hər gün düzəlişlər edilib. *"... Çox fəal gündəlik iş gedirdi və bir sıra hallarda, - hərbi əməliyyatların gedişi indi artıq məlumdur, - bizim fəaliyyətimiz, bizim əməliyyatlarımız düşmən üçün çox gözlənilməz olurdu"*, - deyə dövlət başçısı müsahibəsində bildirirdi.

44 günlük Vətən müharibəsi gedişində Azərbaycan daha bir ordu korpusu formalaşdırmağa müvəffəq olub. Cəmi iki gün ərzində həmin korpusun şəxsi heyəti səfərbər edilib, bütün zəruri silahlar və texniki vasitələrlə yüksək səviyyədə təminat aparılıb. Səfərbər edilmiş texniki imkanlar əks-hücum fəaliyyətinin daha səmərəli şəkildə həyata keçirilməsinə böyük kömək göstərib. Müharibənin ilk günlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumları qarşısında yaşanan qələbəliklər hamımızın yaxşı yadındadır. Bu, bir qürur mənzərəsi idi. Bütün Azərbaycan Vətən müharibəsi ovqatında idi. Zəfər ümidi, 30 illik münaqişənin donunun açılması, nisgilli yurdlarımızın azadlığına yolun görünməsi itkilərin ağrılarını ovundururdu. Azərbaycan insanı döyüş meydanında canını qurban vermiş hər şəhidimizin itkisinin bağrımızda açdığı yaralara daş basıb Qələbəyə doğru irəliləyirdi. Şəhidlərimizin qisasını döyüş meydanında almağa can atırdı.

## "Dəmir yumruq" yerindədir

Həmin günlərdə amansız düşmən bir vaxtlar Xocalıda mülki əhaliyə qarşı törətdiyi hərbi cinayətləri yenə davam etdirməkdə idi. 44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayon və şəhərlərimizi - Ağdamı, Ağcabədini, Beyləqanı, Daşkəsəni, Füzulini, Goranboyu, Tərtəri ağır silahlardan intensiv atəşə tuturdu. Cəbhə bölgəsindən xeyli uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər rayonlarımız, şəhərlərimiz atilleriya atəşinə məruz qalmışdı. Raketlərdən birinin Bakının yaxınlığında yerləşən Xızı rayonu üzərində zərərsizləşdirilməsi o demək idi ki, Ermənistan paytaxtımızı da raket hücumlarının hədəfi kimi götürübmüş.

Amma bütün bunlara baxmayaraq, vətəndaşlarımız Ali Baş Komandanı, Ordumuzu bir an da olsun dayanmamağa, düşməni torpaqlarımızdan çıxarmağa, şəhidlərimizin qanını döyüş meydanlarında almağa çağırırdılar. Ermənistanın heç bir beynəlxalq norma tanımayan azğınlığına, mülki əhaliyə qarşı törətdiyi ağır hərbi cinayətlərə rəğmən Azərbaycan Vətən Müharibəsi döyüşlərində heç zaman mülki əhalini, onların yaşadığı obyektləri hədəfə almadı, beynəlxalq humanitar hüququn fundamental prinsiplərini ciddi şəkildə qorudu.

Azərbaycan Vətən müharibəsində tətbiq etdiyi innovativ silahlarla dünyanın hərb tarixində də yeni bir səhifə açdı. Düşmənin yalnız hərbi hədəflərini məhv etməklə müharibəyə də humanizm gətirdi. Müasir silahların verdiyi imkanlarla cəmi bir neçə günün içində müharibənin taleyini həll etdi. "Dəmir yumruğ"un sərrast zərbələri ilə düşmənin zəhərli başını əzdi. Erməni qəsbkarlarının torpaqlarımızdan qaçıb getməkdən başqa əlacı qalmadı. Ermənistanın illərlə qurduğu istehkamlar, xaricdən cəlb etdiyi muzdlu əcnəbi döyüşçülər bir kara gəlmədi. Azərbaycan Ordusunun gücü qarşısında düşmən darmadağın oldu. Onun döyüş meydanına göndərdiyi hərbi texnikanın son dayanacaq yeri Bakıda yaradılmış Hərbi Qənimətlər Parkı oldu.

Ermənistan 44 günlük Vətən müharibəsi nəticəsində, demək olar ki, ordusuz qaldı. Ən əsası illərlə Ermənistan cəmiyyətində sabun köpüyü kimi şişirdilmiş saxta miflər havaya uçdu. Müharibə zamanı Ermənistan ordusunda on mindən çox əsgər fərarilik etdi. Əslində, onlar ən düzgün addımı atdılar. Öz siyasi ambisiyalarını təmin etməkdən ötrü hərbçiləri labüd ölümə göndərənlərin iradəsinə tabe olmaq istəmədilər. Azərbaycan Ordusunda isə 44 günlük Vətən müharibəsi gedişində bir nəfər də olsun fərarilik etmədi. Azərbaycanın hər bir əsgər və zabiti sona qədər şərəflə vuruşaraq tarixi qələbəyə canı-qanı ilə töhfələrini verdi. Bu da Azərbaycanda nə qədər yüksək vətənpərvərlik ruhuna malik nəslin yetişdiyini göstərir.

## Tarixi haqlarımıza nail olmuşuq

Dünyanın müxtəlif ölkələrində xeyli sayda münaqişə ocaqları var. Bu ocaqların olması kimlərəsə sərf edir. Hansısa xarici qüvvələr müəyyən maraqlarını təmin etməkdən ötrü bu münaqişə ocaqlarını yaradır və idarə edirlər. Bütün bunlar bəşəriyyətin əsrlərcə görə-görə gəldiyi acı reallıqdır. Dünyanın böyük güc mərkəzləri üçün kifayət qədər əhəmiyyətli bölgə olan Cənubi Qafqaz da bu bəladan xali deyil. İmperiyalar dağılanda, əfsus ki, onların ağır miraslarından biri məhz bu cür münaqişə ocaqları olur. Keçmiş SSRİ imperiyasının belə "qalıqları" ilə Azərbaycan da üzləşmişdi. On illər boyu danışıqlar aparılır, guya həll yolları axtarılırdı. Amma bütün bunların sadəcə baş qatmaqdan başqa bir şey olmadığını zaman sübuta yetirdi. İtirilən illərin əziyyətini sadə insanlar çəkdi. Təxminən 30 il sürən, sülh danışıqları ilə bu qədər müddətdə həll olunmayan münaqişəyə 44 günlük Vətən müharibəsi ilə yekun vuruldu. Bütün dünya gördü ki, qələbə arzusuna çatmaq üçün həm də güclü, qüdrətli olmalısan. Yeri gələndə, vuran əlinin zorunu da göstərməlisən. Düşmən "dəmir yumruğ"un gücünü duymalıdır. Anlamalıdır ki, rəqibi ondan daha güclüdür. Havadarlarının köməyi, güvəndiyi lobbi alverçilərinin dəstəyi onu bu zərbədən xilas etməyəcək.

Bu günlərdə İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində Prezident İlham Əliyev Azərbaycanla barışıq, bütün qonşularla xoş münasibət tərəfdarı olanlara, Cənubi Qafqazda sülh, davamlı inkişaf, qarşılıqlı əməkdaşıq arzulayanlara ölkəmizin mövqeyini bir daha çatdırdı. Dövlət rəhbərimiz qeyd etdi ki, biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik. Biz dərhal sərhədlərimizin delimitasiyasına və bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq: *"Həmçinin biz gələcək sülh sazişi üzərində Ermənistanla işləməyə başlamağa hazır olduğumuzu bildirmişik. Bütün bu təşəbbüslər tərəfimdən və digər Azərbaycan rəsmiləri tərəfindən dəfələrlə vurğulanmışdır. Lakin əfsuslar olsun ki, Ermənistan hələ də buna müsbət cavab verməyib. Beləliklə, bizim mövqeyimiz dəyişməz olaraq qalır və bəzi addımlar var, lakin hesab edirəm ki, biz bu il ərzində daha çox irəliləyişə nail ola bilərdik".*

## Status yoxdur və hər kəs bu məsələni unutmalıdır

Prezident İlham Əliyev müsahibəsində Ermənistan rəhbərləri ilə danışıqlara, müzakirələrə açıq olduğunu vurğulayaraq bunun, müharibənin bitdiyinin və həmin səhifənin çevrildiyinin yaxşı göstəricisi ola biləcəyini qeyd etdi: *"Bu, çox vacibdir. Çünki biz hələ də Ermənistan siyasi isteblişmentində revanşizm cəhdlərini nümayiş etdirən bəyanatları, tarixən və beynəlxalq hüquq əsasında bizə məxsus olan əraziləri təkrar ələ keçirmək üçün gələcək planların qurulması cəhdlərini görür və eşidirik. Buna görə, Ermənistan hökumətinin iradəsi, ciddi iradəsi, təkcə sözlər, bəyanatlar yox, əməllər müharibənin bitməsini və bizim sülh dövrünə doğru irəlilədiyimizi nümayiş etdirəcək".*

Azərbaycan Prezidenti ara-sıra müəyyən dairələr tərəfindən gündəmə gətirilən status məsələsi barədə də bir daha öz qəti mövqeyini bildirdi. Artıq Dağlıq Qarabağ adlı inzibati vahidin mövcud olmadığını, bu il iyulun 7-də Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası ilə bağlı fərman imzaladığını və burada iki iqtisadi zonanın - Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradıldığını, onların bütün bu ərazini əhatə etdiyini xatırlatdı. Vurğuladı ki, bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə - Qarabağda yaşayan 25 minə yaxın etnik erməni Azərbaycan vətəndaşlardır: "Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq. Qısaca desək, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır".

Əgər Ermənistan tarixi səhvlərindən nəticə çıxarıb heç olmasa bundan sonra konstruktiv mövqe tutarsa, regionun təhlükəsizliyinə əsas təhdid mənbələrindən biri olaraq qalmazsa, Cənubi Qafqazı gözəl bir gələcək gözləyir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü və Azərbaycanın da fəal şəkildə dəstəkləyərək reallaşmasına çalışdığı regional əməkdaşlıq platforması bunun təminatçısıdır. Dövlətimizin rəhbəri İlham Əliyev hesab edir ki, belə bir platforma nəinki müharibədən sonrakı məsələlərə, eləcə də, ümumilikdə bölgədə regional inkişafa xidmət edəcək: *"Çünki əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək. Təkcə, Azərbaycanın güclü təşviq etdiyi kommunikasiyaların açılması sayəsində biz region ölkələri arasında dərhal ticarət dövriyyəsini artıra, on minlərlə iş yeri aça bilərik. Bu, yalnız kommunikasiyaların açılması sayəsində olacaq. Bununla belə, qarşılıqlı ticarəti gücləndirsək, müsbət dinamikaya diqqət yetirsək, regionumuz gərginlik məkanından sabitlik və sülh regionuna çevriləcək".*

Beləliklə, Azərbaycan Vətən müharibəsindəki parlaq qələbəsi ilə yaratdığı reallıqları daha da möhkəmləndirir. Bu reallığı düzgün qiymətləndirənlər ondan böyük faydalar qazanacaqlar. Müxtəlif pozucu əməllərlə regionun inkişafına mane olmaq istəyən bədxahlar isə, tarixi fürsətləri itirməklə ən böyük ziyanı özlərinə vurmuş olacaqlar.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Zəngilanın elektrik enerjisi infrastrukturu da zəngin olacaq

*Əvvəli 1-ci səh.*

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur getdikcə daha çox nura boyanır. Prezident İlham Əliyev regiona hər səfəri zamanı yeni enerji obyektlərinin açılışını edir. "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyası bunlardan biridir.

Vətən müharibəsindən sonra Zəngilanın enerji təchizatının yenidən qurulması üçün genişmiqyaslı işlər həyata keçirilib. Belə ki, elektroenergetika infrastrukturu tamamilə dağıdılmış rayona Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə 2 transformator quraşdırılıb. Gələcəkdə şəbəkənin genişləndirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılıb. Burada mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub ki, bu da yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsinə imkan verir.

İşğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt olub. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "ağıllı şəhər", "ağıllı kənd" də daxil olmaqla, qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan çox təşkil edəcəyi gözlənilir. Məhz bu səbəbdən də Zəngilan rayonunun və ümumilikdə Şərqi Zəngəzur iqtisadi rayonunun gələcək inkişaf istiqamətləri nəzərə alınaraq artacaq güc tələbatlarının qarşılanması məqsədilə yeni çəkilən 110 kV-luq ikidövrəli elektrik verilişi xəttinin gücötürmə qabiliyyəti 150-160 MVt-dır.

"Zəngilan" yarımstansiyası, ilk növbədə, Zəngilan rayonunda yerləşən hərbi hissələri, sərhəd xidməti obyektlərini, bir sıra infrastruktur layihələri həyata keçirən müxtəlif dövlət strukturlarının, yol-tikinti şirkətlərinin obyektlərini elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə həmin vacib infrastrukturun əhəmiyyətini qeyd edərək dedi: "Bu gün yarımstansiyanın da açılışını etdik. Mənə məlumat verildi ki, sovet vaxtında Zəngilan rayonunun ümumi enerji tələbatı cəmi 7 meqavat idi, çünki əhali o qədər də çox deyildi. İndi isə biz gələcək inkişafı nəzərə almaq şərti ilə yarımstansiyanı 50 meqavatlıq etdik. Bir də ki, əhali artıb. İşğala qədər Zəngilan rayonunun əhalisi təqribən 30 mindən bir qədər çox idi. İndi 45 minə çatıb və əminəm ki, zəngilanlıların hamısı gəlib burada, belə bir gözəl yerdə, doğma vətəndə yerləşəcək".

Dövlət başçısının xeyir-duası ilə Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın qurulmasına da start verilib. Rayonda 35/10 kV-luq 240 kilometrlik və 0,4 kV-luq 1050 kilometrlik elektrik veriliş xətti tamamilə yenidən qurulacaq. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaq.

Xatırladaq ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamında qarşıya qoyulan vəzifələrin icrası məqsədilə "Azərişıq" tərəfindən Paylayıcı Şəbəkələrin Yaşıl Enerji Zonası tələbləri üzərində qurulmasına başlanıb və "ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanması təmin edilir, bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Rəqəmsal yarımstansiyalarda iş alınan və ötürülən elektrik enerjisinin miqdarına görə multifunksional rejimdə qurulur, cihaz və avadanlıqlar bir-birilə koordinasiya vəziyyətində işləyir, əməliyyatlar paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılır, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti təmin edilir. Ən əsası, "yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır.

Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimi zamanı qeyd edilib ki, Kəlbəcərdə hərbi hissələri elektrik enerjisi ilə təchiz etmək üçün 132 kilometrlik yeni xətt çəkiləcək, 42 kilometrlik xətt isə bərpa olunacaq. Hazırda bu istiqamətdə işlər davam edir. Deməli, Qarabağın və Şərqi Zəngəzurun işığı gündən-günə artır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




## ZƏFƏR gündəliyi

## 24-25 oktyabr 2020-ci il

**Oktyabrın 24-də** cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirirlər.



Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulur. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılır. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilir. Əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülür, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılır və vacib yüksəkliklər azad edilir.

Bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Tərtər və Bərdə rayonlarının ərazilərindəki yaşayış məntəqələrimiz düşmən tərəfindən atəşə tutulur. Xeyli sayda yaşayış evinə ciddi ziyan dəyir.

Düşmən Goranboy və Naftalan istiqamətindəki ərazilərimizi atəşə tutur.

❖ ❖ ❖

Gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilir.

❖ ❖ ❖



Saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edir.

Azərbaycan HHQ-si düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməyə davam edir.

❖ ❖ ❖



Prezident İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verir. Jurnalistin ilk sualından məqsədi bəlli olur.

Fransalı müxbirin "nəyə görə Siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir" sualına cavabında Prezident dedi ki, biz Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçib. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olub. Prezident üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üç hərbi təxribat törədildiyini söyləyərək işğalçının əsl məqsədini açıqladı və qeyd etdi ki, Azərbaycan onlara yalnız adekvat cavab verib: "Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik".

Müharibənin hansı şərtlərlə dayandırılmasına gəlincə isə İlham Əliyev dedi: "Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan - Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də, əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik".

❖ ❖ ❖



Azərbaycan Ordusunun bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatlarının qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atır.

Belə ki, hazırda Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini güclü atəşə tutur.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

❖ ❖ ❖

Saat 15:25 radələrində Ağdərə rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirməyə davam edir

❖ ❖ ❖

Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək onların xəsarət almaması üçün hərbi obyekt və infrastrukturdan uzaq durmasını tövsiyə edir.

Eyni zamanda Azərbaycanın Hərbi Komandanlığı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə də müraciət edərək silahı yerə qoymağı və təslim olmağı təklif edir.

❖ ❖ ❖



Günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd edir.

Bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilir. Düşmən qüvvələrindən əsir götürülənlər var.

❖ ❖ ❖



**Oktyabrın 25-də** cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirir.

Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə atəşlə ciddi zərbə vurub onun müqavimətini zəiflədərək müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyir. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 "Qiasint-B" topu, 7 ədəd avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

Hazırda cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖



Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silah növünü tətbiq edir.

Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə ordumuzun bölmələri üstünlüyünü qoruyur.

Aparılan uğurlu döyüş əməliyyatları zamanı düşmənin 2 artilleriya qurğusu, 2 BM-21 "Qrad", 1 komanda qərargah maşını, 1 komanda idarəetmə məntəqəsi, 2 yük maşını, 1 tank və bir neçə atəş nöqtəsi məhv edilir.

❖ ❖ ❖



Qubadlı istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstərirlər. Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilir. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobil və bir zirehli texnikası ələ keçirilir.

Ələ keçirilən hərbi qənimətlərin görüntüləri təqdim edilir.

❖ ❖ ❖



Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibə verərək bir daha Azərbaycanın savaşı dayandırmağa hazır olduğunu bildirir:

"Biz bu gün atəşkəsi razılaşdırmağa hazırıq. Lakin, eyni zamanda, Ermənistan, onun baş naziri deməlidir ki, onlar Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış əsas prinsiplərə sadiqdir. İki gün bundan əvvəl Ermənistanın baş naziri dedi ki, Dağlıq Qarabağ münaqişəsinin diplomatik həlli yoxdur. Biz atəşkəs istəyirik, biz torpaqlarımızın qaytarılmağını istəyirik. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ABŞ, Fransa və Rusiyanın təqdim etdiyi sülh planına uyğun olaraq torpaqları boşaldacağına dair öhdəlik götürməlidir. Lakin o, bunu demir".

Prezident bir daha həqiqətləri açıqlayır, bəzi iftiralara aydınlıq gətirir və qətiyyətlə vurğulayır ki, Azərbaycan bu haqq savaşında istəyinə nail olmadan dayanmayacaq.

❖ ❖ ❖



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilir.

Bir aya yaxın davam edən müharibədə Azərbaycan Ordusunun döyüş meydanında böyük uğurlar əldə etdiyini söyləyən Ali Baş Komandan İlham Əliyev hər gün cəbhədən yaxşı xəbərlər gəldiyini deyir. Eyni zamanda diqqətə çatdırır ki, vəziyyət tam nəzarət altındadır. İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilib, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan təmizlənib. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı dalğalanır:

"Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma biz bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Mən bu döyüş tapşırığını təsdiqləyirəm və demək olar ki, bu tapşırığın böyük hissəsi icra edilir".

Ali Baş Komandan bir daha Azərbaycan xalqını əmin edir ki, bundan sonra da haqq yolundan dönməyəcək, düşmən sona qədər qovulacaq, ərazi bütövlüyümüz bərpa ediləcək.

❖ ❖ ❖



Günün ikinci yarısında cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənə dəqiq zərbələr endirir.

Zərbələr nəticəsində düşmənin 6 D-30 və 1 D-1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası, 1 avtomobil texnikası və xeyli sayda döyüş sursatı məhv edilir.

❖ ❖ ❖

Axşam saatlarında Prezident xalqa daha bir xoş xəbər verir. Dövlət başçısı "Tviter" səhifəsində paylaşım edərək yazır:

"Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır!"

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri davam etdirilir





Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri davam edir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, şəhid kapitan Cəmiyev Aşur Bəybala oğlu, baş gizir Yusifli Azər Nazim oğlu, kiçik gizirlər Namazov Elcan Hidayət oğlu, Paxırov Elsevər Eyvaz oğlu, Şıxıyev Səyyad Abdul oğlu, Məmmədli Əşrəf Elman oğlu, Tağıyev Şahin Rəhim oğlunun anım mərasimlərində iştirak edən DSX-nin rəhbər heyəti, ictimaiyyətin nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, üzərinə gül çələngi qoyublar.

Mərasimlərdə iştirak edənlər torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistan üzərində qazanılmış tarixi Qələbədən danışıb, döyüş meydanında xalqımızın qəhrəmanlıq ənənələrini davam etdirən şəhidlərimizin qanlarını və canlarını yurdumuzun bütövlüyü naminə fəda etdiklərini vurğulayıblar.

Müqəddəs savaşda xalqımıza Zəfər sevinci yaşatmış şəhidlərimizin əziz xatirəsinin hər zaman sonsuz ehtiram və minnətdarlıqla anılacağı, onların qoyduğu fədakarlıq və şücaət mirasının gələcək nəsillərə örnək olacağı qeyd edilib.

Şəhidlərin ailə üzvləri Azərbaycan dövlətinin torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən qəhrəmanların xatirələrinin əbədiləşdirilməsi, ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***"Azərbaycan"***

# Canəli Xanəli oğlu Əkbərov



**Azərbaycanın musiqi mədəniyyətinə ağır itki üz vermişdir. Milli muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Canəli Xanəli oğlu Əkbərov 2021-ci il oktyabrın 22-də ömrünün 82-ci ilində vəfat etmişdir.**

Canəli Əkbərov 1940-cı il mart ayının 10-da Lənkəran rayonunun Tükəvilə kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1956-1958-ci illərdə Lənkəran Tibb Texnikumunda oxumuşdur. Musiqiyə hələ erkən yaşlarından hədsiz maraq göstərən Canəli Əkbərov 1963-1968-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin xanəndəlik şöbəsində təhsil almış və mədəni-mənəvi irsimizin zəngin xəzinəsi olan muğamın incəliklərini həmin dövrdə böyük həvəslə öyrənmişdir. Burada onun sənətkar şəxsiyyətinin formalaşmasında məşhur ustad sənətkarlarımızın böyük rolu və mühüm təsiri olmuşdur. Canəli Əkbərov 1976-1982-ci illərdə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil almışdır.

1963-1975-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında işləyən Canəli Əkbərov 1976-2006-cı illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olmuş, opera səhnəsində aparıcı rollarda çıxış edərək çox sayda yaddaqalan obrazlar yaratmışdır.

Canəli Əkbərov 1992-ci ildən etibarən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs demiş, uzun illər muğam sənəti kafedrasının müdiri olaraq fəaliyyət göstərmişdir.

Geniş səs diapazonuna malik sənətkar Canəli Əkbərov milli xanəndəlik məktəbinin nailiyyətlərini layiqincə davam etdirmiş və Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə töhfələr vermişdir. Sələflərinin yaradıcılıq ənənələrinə sadiqlik və muğamın klassik ifa tərzinin qorunub saxlanması onun altmış ildən artıq müddət ərzindəki fəaliyyətinin başlıca qayəsini təşkil etmişdir. Canəli Əkbərovun ifasında səslənən "Orta mahur", "Çahargah", "Arazbarı", "Heyratı" və digər qədim muğamlarımız, bir çox təsniflər və xalq mahnıları, həmçinin muğam operalarında yaratdığı partiyalar Azərbaycanın musiqi mədəniyyətinin inciləri sırasında özünəməxsus yer tutur.

Dünyanın bir çox ölkələrinə qastrol səfərlərində Azərbaycan mədəniyyəti günləri və beynəlxalq musiqi festivallarının iştirakçısı kimi Canəli Əkbərov milli mədəniyyətimizi uğurla təmsil etmiş, öz çıxışları ilə musiqimizi dünyanın müxtəlif xalqlarının nümayəndələrinə sevdirməyi bacarmışdır. Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş ustad xanəndənin səmərəli sənət fəaliyyəti gənc və istedadlı ifaçıların yeni nəslinin formalaşdırılması üçün bir məktəb olmuşdur.

Canəli Əkbərov milli musiqi mədəniyyətinin inkişafı sahəsində nailiyyətlərinə görə 2000-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2010-cu ildə "Şərəf" və 2020-ci ildə 1-ci dərəcəli "Əmək" ordenləri ilə təltif edilmişdir.

Görkəmli xanəndə, mahir pedaqoq, səmimi və təvazökar insan Canəli Əkbərovun xatirəsi sənətsevərlərin qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Anar KƏRİMOV, Emin ƏMRULLAYEV, Zeynəb XANLAROVA, Əlibaba MƏMMƏDOV, Arif BABAYEV, Səkinə İSMAYILOVA***

# "Şəhid olsam, özümü xoşbəxt sayaram"

## Fərid Dursunov son məktubunda belə yazmışdı

Fərid hələ uşaqkən atasının medallarını döşünə taxıb, taxtadan düzəltdiyi avtomatı çiyninə keçirib qonşu uşaqları ilə "müharibə" meydanında "vuruşmağı" çox sevərdi. Atası Fazil Dursunov Sovet qoşunlarının tərkibində Əfqanıstanda döyüşmüşdü. Ata müharibənin nə olduğunu hamıdan yaxşı bilirdi. Onu da yaxşı bilirdi ki, hərbi biliklərə yiyələnmək hər bir oğulun borcudur. Elə buna görə də gözünün ilk nuru Fəridin hərbçi olmaq istəyini dəstəkləyirdi.





Fərid 1986-cı il iyulun 26-da dünyaya göz açmışdı. 2003-cü il kənd orta məktəbini bitirib, Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olmuşdu. Hərbi məktəbi 2008-ci ildə bitirib xarici dövlətlərin birinə qısamüddətli hərbi təlimə göndərilmişdi. Fərid düz 12 il ön cəbhədə, düşmənlə üz-üzə xidməti vəzifəsini şərəflə yerinə yetirmişdi. Azərbaycan Silahlı Qüvvələrin Quru Qoşunlarının kapitanı Fərid Dursunov şərəfli zabit adını həmişə uca tutmuşdu. Xidmət etdiyi illərdə Azərbaycan Silahlı Qüvvələrin üç yubiley medalı, "Qüsursuz xidmətə görə" III dərəcəli medalla təltif olunmuşdu.

Kapitan Fərid Dursunov 2020-ci il sentyabrın 27-də işğal altında olan ərazilərimizin azad edilməsi üçün Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsi zamanı Kəlbəcər döyüşlərində savaşıb. Sentyabrın 28-də isə Şəhidlik şərbətini içib. Doğma kəndində dəfn olunub.

Fərid Vətənini çox sevən, uğrunda can verməyə hazır olan oğullardan idi. O, bu sevgini özündən kiçik iki qardaşına da ötürə bilmişdi.

Fazil Dursunov oğulları ilə haqlı olaraq fəxr edir: "Nə yaxşı ki, onları belə, Vətənini uğrunda can verəcək qədər sevən igidlər kimi böyüdə bilmişəm. "Hərbçi olmaq istəyirəm" dediyi gündən onunla fəxr etmişəm. Hər dəfə oğlumu hərbi formada görəndə qürurla dayanıb onu xeyli süzərdim. Kiçik oğullarım da bunu yaxşı bilirdilər. Onlar hərbi məktəbdə oxumamışdılar. Amma hiss edirdim ki, Vasif və Röyal da bu yolu seçəcəklər. Hər ikisi həqiqi hərbi xidmətdən qayıdandan sonra Milli Orduya qayıdacaqlarına qərar verdilər. Vətənə döyüşən oğullar gərəkdir. Doğrusu, anaları Mirvari bir qədər narazı idi. Deyirdi ki, heç olmasa biri yanımızda qalsın".

Müharibə başlamamışdan bir neçə gün əvvəl Fərid kiçik qardaşına bərk-bərk tapşırır ki, döyüş başlanan gün, çayda dəstənamazını alsın, namazını qılsın, əyləşsin texnikasına. Heç nə fikirləşməsin. Ancaq düşmənin üstünə irəliləsin. Qarabağda görüşərik. Bu onun kiçik qardaşına son vəsiyyəti olur.

Fərid evli idi. Qonşu kənddən - Şotavardan sevib-seçmişdi. Məryəmlə xoşbəxt idilər. İki oğul - İsa və Öməri böyüdürdülər. Çox sevərdi oğullarını. Boş vaxt tapan kimi onlarla futbol oynayardı. Fərid hələ uşaqlığından "Qalatasaray"lı idi. Arzusu Türkiyəyə getmək, "Qalatasaray" komandasının oyununu canlı-canlı seyr etmək olub. Bu sevgini həyat yoldaşı Məryəmlə, oğulları ilə bölüşürdü Fərid.

Fərid yoldaşlarına bərk-bərk tapşırmışdı ki, işdir şəhid olsa, məzarı üstündə Azərbaycan bayrağı ilə yanaşı "Qalatasaray"ın bayrağını da ucaltsınlar. Dəfn mərasimində iştirak edən dostları onun bu vəsiyyətinə əməl etmişlər. İndi Fəridin məzarı üstündə üçrəngli müqəddəs bayrağımızla yanaşı onun sevimli komandasının bayrağı da dalğalanır.

Fəridin bu sevgisindən xəbər tutan "Qalatasaray" İdman Klubu rəsmi tvitter hesabında şəhidimiz Fərid Dursunovun məzarının fotosunu paylaşmış, ailəsinə və Azərbaycana başsağlığı mesajını yayımlamışdır.

"Qalatasaray" Futbol Klubunun başqan yardımçısı Yusif Günay şəhidin atası ilə telefonla danışmış, Fərid kimi igid Azərbaycan oğulları ilə fəxr etdiklərini bildirmiş, başsağlığı vermişdir.

- Adəti idi, həmişə işə gedəndə mənimlə, uşaqlarla sağollaşardı. Bu dəfə əvvəl İsanı, Öməri bərk-bərk qucaqlayıb öpdü. Sonra əllərimdən tutub, mənim alnımdan öpdü və bircə bunu dedi: "Uşaqlardan muğayat ol". O gedəndən bir neçə saat sonra yazdığı məktubu tapdım. Çox qısa idi məktubu: "Məndən narahat olmayın. Şəhid olsam, özümü xoşbəxt sayaram". Əlimdə məktub donub qalmışdım. O, bizimlə vidalaşırdımı?! İçimdən elə bil nə isə qırılıb düşdü. Telefon zənginə cavab almadım... Bilirdim ki, gec-tez torpaqlarımızı azad etmək üçün müharibə olacaq. Öndə Milli Ordunun zabitləri dayanacaqlar. 10 illik ailəlik həyatımda özümü müharibənin gətirəcəyi acılara alışdırmağa çalışsam da, müharibə xəbəri məni sarsıtmışdı. Sanki nə isə pis bir xəbər alacağam kimi ürəyim yerindən çıxırdı...

Məryəm danışdıqca göz yaşları sel olub axırdı. Balaca Ömər isə hey içini çəkib: "Ağlama, ana", - deyirdi.

Fəridin doğum günündə onun ailəsinə baş çəkdim. Üç igidin anası Mirvari Dursunova ilə ilk görüşüm idi. Özümü bu ailənin yaxını bildiyim üçün çox səmimi keçdi ilk görüşüm. Fazilin rəhmətlik anası - Fəridin nənəsi Babbalı ilə mən xala nəvələri idik. Söhbət bizi çox uzaqlara apardı...

Mirvari anaya səbr dilədim. "Vətən üçün belə igidlər böyütməyin özü ən böyük səadətdir", - dedim. Oğul evləndirib, ev-eşik, oğul-uşaq sahibi etmək valideyn üçün şərəfdir. Hələ bu oğullar Vətən üçün sinəsini sipər edərsə, bir dünya xoşbəxtlik qürurdur. Mirvari ana belə xoşbəxt analardandır. Üç oğlu torpaqlarımız üçün ön cəbhədə düşmənlə vuruşub. Tanrı onlardan birini seçdi. Onu Şəhidlik zirvəsinə qaldırdı.

Ölümündən sonra Fərid Dursunov Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Fəridin dəfnindən bir il keçir. Anım gününə döyüş dostları, rayon rəhbərləri, kənd camaatı, rayon gəncləri toplaşmışdı. Məzarı üstə ruhuna dualar oxunmuş, igidliyindən söz açılmışdı.

Noyabrın 8-də Qələbə gününü qeyd edəcəyik. Qələbəni doğma xalqımıza bəxş edən, bu yolda şəhid olan oğullarımızın ruhları qarşısında baş əyirik və deyirik: "Qələbə gününüz mübarək!, Şəhid oğullarımız!"

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru***

# YAP Gənclər Birliyi "ZƏFƏR" Parlament Debatı Forumu təşkil edəcək




Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizə həsr olunan "ZƏFƏR" Parlament Debatı Forumu keçiriləcək.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, forum çərçivəsində 100-dək gənc Qarabağa həsr olunan mövzu ətrafında debat yarışlarında iştirak etmək şansı qazanacaq. Bütün iştirakçılar turnirdən əvvəl Parlament Debat formatına uyğun olaraq xüsusi təlim prosesinə cəlb ediləcək.

Qeyd edək ki, layihə "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin tərəfdaşlığı ilə həyata keçirilir.

Vətən müharibəsində Qələbəyə həsr edilən Parlament Debatı Forumunun iştirakçısı olmaq üçün fərdi qaydada və ya komanda şəklində (komanda 2 nəfərdən ibarət olmalıdır) qeydiyyatdan keçmək mümkündür.

Xatırladaq ki, oktyabrın 26-sı saat 12:00 müraciət üçün son tarixdir.

"ZƏFƏR" Parlament Debatı Forumuna qeydiyyat üçün keçid: https://forms.gle/cnn8GKkqDrDN599CA

# Bu ilin 9 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumlarında 343 mindən çox vətəndaş qəbul edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumları tərəfindən bu ilin yanvar-sentyabr aylarında 343 min 469 vətəndaşın qəbulu həyata keçirilib.




Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər ki, onlardan 2366-sı nazirliyin və qurumlarının rəhbər vəzifəli şəxsləri tərəfindən (videoformatda), 341 min 103-ü nazirliyin və qurumlarının qəbul mərkəzlərində, DOST mərkəzlərində qəbul edilib.

Bu ilin 9 ayında nazirlik üzrə yazılı və e-qaydada edilmiş 960 min 223 vətəndaş müraciətinin cavablandırılması təmin edilib.

Müraciətlərin 313 min 215-i nazirlik və qurumları tərəfindən, 594 min 762-si 142-Çağrı Mərkəzi vasitəsilə, 52 min 246-sı isə sosial şəbəkələr üzərindən cavablandırılıb.

Hər bir müraciətin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılaraq cavablandırılması, müraciətlərdə əksini tapan məsələlərlə əlaqədar aidiyyəti tədbirlərin görülməsi təmin olunub.

***"Azərbaycan"***

# Xəzər rayonunda Vətən müharibəsi şəhidinin xatirəsi anılıb

Xəzər rayonunda Vətən Müharibəsi Qəhrəmanı, şəhid Qasımov Ramiz Vaqif oğlunun anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, şəhidin məzarı önündə keçirilən tədbirə Xəzər Rayon İcra Hakimiyyətinin, YAP Xəzər rayon təşkilatının rəhbər və məsul şəxsləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri, din xadimləri qatılıblar.

Tədbir iştirakçıları şəhidin əziz xatirəsini ehtiramla yad edərək məzarı üzərinə gül dəstələri düzüblər.

Sonra şəhidin keçdiyi şərəfli ömür yolundan danışılıb, döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaətdən söz açılıb.

Şəhidin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.



# Jurnalistlər üçün "Məişət zorakılığı media müstəvisində" mövzusunda təlimin bağlanış mərasimi olub

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Medianın İnkişafı Agentliyi, Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı və Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycanda məişət zorakılığı qurbanlarına dəstəyin gücləndirilməsi" adlı Tvinninq layihəsinin dəstəyi ilə jurnalistlər üçün "Məişət zorakılığı media müstəvisində" mövzusunda keçirilən 4 günlük təlim başa çatıb.

Medianın İnkişafı Agentliyinin (MEDİA) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Dövlət Universitetində təşkil olunan təlimdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları, ölkənin bir sıra media subyektlərini təmsil edən jurnalistlər, həmçinin bu ali təhsil ocağının Jurnalistika fakültəsinin tələbələri olmaqla, ümumilikdə 60 nəfər iştirak edib.

Təlimlərin təşkilində məqsəd məişət zorakılığının mediada düzgün şəkildə işıqlandırılması, zorakılığa məruz qalmış şəxslərin məxfiliyinin qorunması və zorakılıq qurbanlarından müsahibənin alınması yolları və ictimaiyyətə dəstək mexanizmləri barədə lazımi məlumatların çatdırılması sahəsində beynəlxalq təcrübənin paylaşılması olub.

Qeyd edək ki, oktyabrın 19-22-də keçirilən təlimlər avstriyalı ekspertlər Manuela Hargassner-Delpos və Thomas Hainlen tərəfindən aparılıb.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

Elm xadimləri

O, hər zaman inanıb ki, bütün uğurların açarı zəhmətlə istedadın vəhdətindədir. Bir də böyük məqsəd və uca amallarla yaşayan insan nə qədər çətinliklərlə qarşılaşsa da, ruhdan düşməməlidir. Doğma vətəninin və millətinin tərəqqisi naminə çalışmağı ən böyük amalı hesab edən ziyalılarımızdan biri, elmi potensialı, tədqiqatçılıq bacarığı, intellekti, güclü məntiqi, alicənablığı, xeyirxahlığı ilə elmi ictimaiyyətə yaxşı tanış olan Əməkdar elm xadimi, professor Rafiq Hüseynovun həyatı və fəaliyyəti çoxlarına nümunədir.

# Uca amallarla yaşayan ziyalı

O, 1946-cı il oktyabrın 22-də zəngin tarixi, əsrarəngiz təbiəti olan Şəki şəhərində dünyaya gəlib. Atası Qurban Hüseynov dövrünün tanınmış ziyalılarından olub.

Kiçik yaşlarından oxuyub öyrənməyə maraq göstərən Rafiq Hüseynov ilk təhsilini Şəkidə alıb. O, Şəkidə ibtidai, Bakıda isə orta məktəbi əla qiymətlərlə başa vurub. 1963-cü ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti) “Mühəndis - metallurq” ixtisası üzrə daxil olub. İnstitutun əlaçı tələbələrindən olub. Çalışqanlığı yalnız dərslərini yaxşı oxuması ilə yekunlaşmayıb. O, həm də fəallığı ilə həmyaşıdlarına nümunə olub. Respublika miqyaslı müşavirələrdə, toplantı və yığıncaqlardakı çıxışlarında irəli sürdüyü maraqlı təklifləri ilə diqqəti cəlb edib.

1968-ci ildə ali məktəbi uğurla başa vurub. Təyinatla Rusiya Federasiyasının Novokuznetsk Metallurgiya zavoduna işləməyə göndərilib. Zavodda mühəndis-metallurq kimi ilk əmək fəaliyyətinə başlayıb. Bir müddət sonra vətənə dönüb. Əmək fəaliyyətini Bakı Əlvan Metalların Emalı Zavodunda davam etdirib. Həmin zavodda baş usta-texnoloq, sex rəisi vəzifələrində çalışıb. Hər zaman işlərinə məsuliyyətlə yanaşan Rafiq Hüseynovun iş təcrübəsi ildən-ilə zənginləşib.

O, hələ tələbəlikdən elmi araşdırmalara böyük maraq göstərib. Rafiq Hüseynovun elm sahəsində səmərəli işlər görə biləcəyini, uğur qazanacağını düşünən müəllimləri onu təhsil aldığı ali məktəbə işləməyə dəvət ediblər. 1969-cu ildə o, Azərbaycan Politexnik İnstitutunun “Metallar texnologiyası və metalşünaslıq” kafedrasında fəaliyyətə başlayıb, laborant, assistent vəzifələrində çalışıb.

1971-1974-cü illərdə Moskva Kimya Maşınqayırma İnstitutunda əyani aspiranturada təhsil alıb. Namizədlik dissertasiyasını müdafiə edib. Vətəninə qayıdan gənc alim yenidən doğma institutunda fəaliyyət göstərib. 1974-1981-ci illərdə Azərbaycan Politexnik İnstitutunda baş müəllim, dosent vəzifələrində işləyib. O, bir müddət sonra dekan müavini, fakültə partiya təşkilatı katibi vəzifələrində çalışıb.

1976-1981-ci illərdə Respublika Gənc Alimlər Şurasının sədri vəzifəsini tutan alim hərbi, kosmik, neft-qaz-kimya sənaye sahələrində geniş tətbiq olunmuş zireh poladlarının və xüsusi təyinatlı ovuntu-kompozisiya materiallarının yaradıcılarından, həmçinin Xəzər dənizində quraşdırılmış stasionar platformaların hazırlanmasında istifadə olunan poladların hazırlanmasının müəlliflərindən biridir.

Rafiq Hüseynov 1981-1982-ci illərdə T.Şevçenko adına Kiyev Dövlət Universitetində fransız dili kurslarında da oxuyub. Həmin kursu və sonradan Fransa Respublikasında fransız dilinin təkmilləşdirilməsi kurslarını da əla qiymətlərlə başa vurub. O, 1985-1988-ci illərdə Əlcəzair Xalq Demokratik Respublikasına ezam edilib. Bumerdes şəhərində fəaliyyət göstərən Yüngül Sənaye İnstitutunda “Metallar texnologiyası və maşınqayırma texnologiyası” kafedrasının müdiri və həmin şəhərdə çalışan sovet mütəxəssislərinin partiya komitəsi katibinin müavini vəzifəsində çalışıb.

O, harada fəaliyyət göstərirsə-göstərsin, hər zaman zəhmətsevərliyi, savadı ilə fərqlənməyi, hörmət qazanmağı bacarıb. Aydın, elmi əsaslara söykənən fikirləri, şərh tələb edən problemlərin yığcam şəkildə izahını vermək qabiliyyəti ilə tədqiqatçı alimlərin diqqətini cəlb edib.

1992-ci ildə o, Moskva Avtomobil Yolları İnstitutunda doktorluq dissertasiyası müdafiə edib, texnika elmləri doktoru elmi dərəcəsini alıb və professor adına layiq görülüb. Rafiq Hüseynovun həm namizədlik, həm də doktorluq dissertasiyalarının mövzuları hərbi və kosmik sənaye sahələrində istifadə olunan xüsusi təyinatlı zireh poladlarının və xüsusi tərkibli ərintilərin yaradılmasına və



hərbi-kosmik sənayesində istifadəsinə həsr olunub.

Onun Moskva şəhərində elmi fəaliyyəti illərində kosmosun tədqiqi sahəsində əvəzsiz xidmətləri olan məşhur azərbaycanlı Kərim Kərimovla və akademik Tofiq İsmayılovla birgə geniş elmi yaradıcılıq əlaqələri olub.

Rafiq Hüseynov 1996-cı ilin yanvarından 2015-ci ilədək Azərbaycan Texniki Universitetində “Konstruksiya və kompozisiya materiallarının texnologiyası” kafedrasının müdiri olub. Hazırda həmin ali təhsil ocağında “Metallurgiya və metallar texnologiyası” kafedrasında professor vəzifəsində çalışır. Rafiq Hüseynov həm də Müdafiə Nazirliyində və Azərbaycan Texniki Universitetində fəaliyyət göstərən fəlsəfə və elmlər doktorlarının müdafiəsi üzrə xüsusiləşdirilmiş Elmi Şuraların üzvüdür.

O, 2007-2016 illərdə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin “Elm, İnnovasiya və İnformasiya Texnologiyaları” şöbəsinin müdiri vəzifəsində işləyib.

Professor Rafiq Hüseynovun elmi-tədqiqatlar sahəsindəki məhsuldar fəaliyyəti diqqətdən kənarda qalmayıb. O, fəxri adlara və mükafatlara layiq görülüb. Rafiq Hüseynov Komsomol mükafatı, Z.A.Tağıyev adına Respublika mükafatı laureatıdır. İki dəfə Ümumittifaq komsomolunun “Əmək rəşadəti” medalları ilə, kosmik və hərbi sənaye sahələrində geniş tətbiq olunmuş zireh poladları və kompozisiya materiallarının yaradıcısı kimi SSRİ Elmlər Akademiyasının xüsusi medalı ilə təltif olunub. Moskvada, Kremlin Qurultaylar Sarayında keçirilmiş Ümumittifaq Komsomolunun XVIII qurultayına Azərbaycandan nümayəndə seçilib.

2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə respublika müdafiə sənayesinin inkişafında xüsusi xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilib.

Professor Rafiq Hüseynov hərbi, kosmik, neft-qaz və digər xüsusi sənaye sahələrində tətbiq olunmuş və indi də tətbiq olunan 20-yədək patentin, 14 elmi ixtiranın, 180-dən yuxarı elmi məqalənin, 8 dərsliyin (3-ü fransız dilində çapdan çıxıb), çoxsaylı dərs vəsaitlərinin, tədris proqramlarının müəllifidir. Onun elmi məqalələrinin əksəriyyəti Amerika, Fransa, Əlcəzair, Türkiyə, Rusiya, Ukrayna, İran, Avstriya, Birləşmiş Ərəb Respublikası və digər xarici ölkələrin nüfuzlu elmi jurnallarında işıq üzü görüb.

2015-ci ilin oktyabrında Moskva şəhərində “Kosmosdan sülh məqsədləri üçün istifadə”yə həsr olunan beynəlxalq konfransda Rafiq Hüseynovun bu sahədəki fəaliyyəti geniş müzakirə edilib və o, xüsusi mükafatla, kosmosda olmuş qızıl qol saatı ilə mükafatlandırılıb.

Professor 2007-2016-cı illərdə “Kosmosdan sülh məqsədləri üçün istifadə” üzrə beynəlxalq təşkilatın və “Azərkosmos” SC-nin işçi qrupunun Azərbaycandan nümayəndəsi seçilib. Həmin təşkilatın üzvü olan dövlətlərin elmlər akademiyalarının və Kosmik Tədqiqat akademiyalarının prezidentləri (Rusiya Federasiyası, Ukrayna, Belarus, Tacikistan, Qazaxıstan və s.) və hərbi sənaye institutlarının tanınmış akademikləri Moskva şəhərində düzənlənən beynəlxalq konfrans zamanı Rafiq Hüseynovun bu sahədəki fəaliyyətini yüksək dəyərləndirib və Azərbaycan Elmlər Akademiyasına bu barədə məlumat veriblər.

Gənc mütəxəssislərin yetişdirilməsində də professor Rafiq Hüseynovun xidmətləri əvəzsizdir. Tanınmış alim fəaliyyəti dövründə çoxsaylı mühəndis, magistr, bakalavr kadrlarının diplom, buraxılış işlərinə rəhbərlik edib, səkkiz doktorantın elmi rəhbəri və bir neçə elmlər doktoru dissertasiyalarının elmi məsləhətçisi olub. Rafiq Hüseynov bu gün də müdafiə sənayesi sahəsində dissertasiya işini yerinə yetirən doktorantların elmi rəhbəridir. Gənclərin elmi-tədqiqat işlərinə cəlb olunmasına, onların yaxşı tədqiqatçı kimi yetişməsinə səy göstərir. Professor Rafiq Hüseynov öz yetirmələrinə hər zaman böyük qayğı və inamla yanaşır. Müəllimlərinin bu münasibəti onlara həm də elmi problemlərin həllində, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında mənəvi kömək olur, daha həvəslə, inamla çalışmalarına yol açır.

Professor Rafiq Hüseynov həm də xeyirxah ziyalılarımızdan biri kimi tanınır. O, “Şəki Ziyalılar və Xeyriyyə Cəmiyyəti”nin sədri kimi həmyerlilərinin sosial-iqtisadi problemlərinin həllində də öz köməyini əsirgəmir. Həyata keçirdiyi təqdirəlayiq işlərdən biri də onun təşəbbüsü və yaxından iştirakı ilə görkəmli şəkili alim və ziyalıların, dövlət xadimlərinin tərcümeyi-halları və onlar haqqında bioqrafik materialların toplanaraq iki cilddə nəfis şəkildə çap edilməsidir.

Bütün vətənsevər ziyalılarımız kimi Rafiq Hüseynovun da ən böyük dərdi Azərbaycan torpaqlarının otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalması, bir milyondan artıq soydaşımızın öz evindən, ocağından ayrı düşərək məcburi köçkün həyatı yaşaması idi. Müdafiə sənayesinin inkişafına bir alim kimi Rafiq Hüseynov da töhfə vermişdir.

Onun yüksək səviyyədə yerinə yetirdiyi dissertasiya işinin aktuallığı xüsusi qeyd olunmalıdır. Rafiq Hüseynovun doktorluq dissertasiyasının müzakirəsi zamanı akademik A.Qulyayev Rafiq Hüseynovla iyirmi illik birgə fəaliyyətini təhlil edərək, onu hərbi və xüsusi maşınqayırma sənaye sahələrində perspektivli və geniş diapazonlu milli kadr kimi dəyərləndirmişdir. Texnika elmləri doktoru, professor, Rusiya Federasiyasının əməkdar elm xadimi, SSRİ Dövlət mükafatı laureatı M.Laxtin isə Rafiq Hüseynovun nəinki Azərbaycanda, həmçinin Zaqafqaziyada görkəmli materialşünas alim olduğunu vurğulayıb.

Professor Rafiq Hüseynov təkcə respublikamızda deyil, xarici ölkələrdə də yaxşı tanınır, materialşünaslıq sahəsində apardığı tədqiqatlar yüksək qiymətləndirilir. Hələ keçmiş SSRİ-də ilk dəfə zireh poladlarının işlənib hazırlanmasında yeni bir istiqamət seçən, bu poladlarda çox baha başa gələn defisit legirləyici elementləri daha ucuz və asan tapılan mikrolegirləyici elementlərlə əvəz edən Rafiq Hüseynovun haqqında hərbi sənaye sahəsində tanınmış professor U.Başnin və başqaları da yüksək fikirlər bildiriblər.

Rusiyada, Ukraynada, Əlcəzairdə də çalışan professor Rafiq Hüseynov öz vətənini layiqincə təmsil etmək üçün öz gücünü, biliyini və bacarığını əsirgəməyib.

Alimin səmərəli fəaliyyətinin, gərgin əməyinin əsasında xalqına bağlılıq var. Zəngin həyat təcrübəsinə malik, geniş elmi potensiallı professor Rafiq Hüseynov daim axtarışdadır. Doğma vətənimizin və xalqımızın adını hər zaman uca tutan, elmimizi inkişaf etdirən, öz fəaliyyəti və işgüzarlığı ilə nümunəyə çevrilən 75 yaşlı alim, inanırıq ki, bundan sonra da elmdə yüksək zirvələr fəth edəcək.

***Arif HƏŞİMOV,***
***AMEA-nın Fizika İnstitutunun baş direktoru, akademik***

# Qarabağın və Şərqi Zəngəzurun davamlı inkişafına elmi resurslar da səfərbər ediləcək

Tərtər rayonunun Şıxarx qəsəbəsində “AMEA Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasının infrastrukturunun bərpası, bölgə üçün yaradılmış buğda və arpa sortlarının toxumçuluğunun təşkili məsələləri” mövzusunda tarla seminarı keçirilib. Seminar AMEA Biologiya və Tibb Elmləri Bölməsi və AMEA Genetik Ehtiyatlar İnstitutunun birgə təşkilatçılığı ilə reallaşıb.





Tədbir iştirakçıları əvvəlcə Tərtər şəhərinin mərkəzi meydanında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı bölmələri tərəfindən rayonun yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində dəymiş zərər barədə məlumat verib. Bildirib ki, müharibə zamanı Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılıb. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, bir texniki peşə və bir musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəyib.

Tədbir iştirakçıları sonra Şəhidlər abidə kompleksi qarşısına tər çiçəklər düzüb, respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Şıxarx qəsəbəsi ərazisində keçirilən tarla seminarında Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov “Tərtər rayonunun işğaldan azad edilmiş ərazilərində elmi tədqiqatların aparılmasına dəstək verilməsi” mövzusunda çıxış edib. O, Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılmış Qələbənin birinci ildönümü ərəfəsində Qarabağ iqtisadi rayonunun Tərtər rayonunda elmi və ictimai-siyasi əhəmiyyəti olan tarla seminarının keçirilməsini mühüm hadisə kimi qiymətləndirib, seminarın işinə uğurlar arzulayıb.

Qeyd edək ki, kənd təsərrüfatı rayonu olan Tərtərdə son illərdə əhalinin pambıq, şəkər çuğunduru yetişdirilməsinə marağı yüksəlib. Tərtər rayonu bu strateji kənd təsərrüfatı məhsulları üzrə orta məhsuldarlığa görə respublikada ön sıradadır. Əkin sahələrində suvarmanın normal təşkili üçün son 15 ildə rayonda 191 subartezian quyusu qazılıb.

Məlumdur ki, işğal nəticəsində uzun müddət ərzində Sərsəng və Suqovuşan su anbarlarından istifadə mümkün olmayıb. Artıq bir ilə yaxındır Suqovuşan su anbarı vasitəsilə ərazilərimizin suvarılması həyata keçirilir.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar elmin inkişaf perspektivləri” mövzusunda məruzə ilə çıxış edib. Akademik ölkə elmi və aqrar sahənin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən seminarın AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin işğaldan sonra qədim Qarabağ torpağında keçirilən ilk tədbiri olduğunu qeyd edib.

Qarabağın təbiəti, landşaft örtüyü, torpaqları, iqlim şəraiti, əlverişli su təminatı və coğrafi mövqeyinin kənd təsərrüfatının inkişafı üçün hər zaman böyük imkanlar yaratdığı bildirilib, işğaldan əvvəl regionda təqribən 140 min hektar əkin sahəsinin istifadə olunduğu diqqətə çatdırılıb.




Xatırladaq ki, Qarabağ Elmi-Tədqiqat Bazası tərəfindən 1950-1989-cu illərdə təqribən 1700 hektar torpaq sahəsində mədəni bitkilərin və kənd təsərrüfatı heyvanlarının region üçün səciyyəvi genetik ehtiyatlarının, yerli ənənəvi xalq seleksiyası nümunələrinin toplanması, öyrənilməsi, seleksiyada istifadəsi, yeni bitki sortları və heyvan cinslərinin ilkin toxumçuluğunun və damazlıq işinin təşkili və yayılması həyata keçirilib. Aqrar elmin inkişafında xüsusi rolu olan bu regional mərkəzdə Azərbaycanın tanınmış alimləri, akademiklər - Cəlal Əliyev, İmam Mustafayev, İlyas Abdullayev, Ələkbər Quliyev və digər mütəxəssislər səmərəli fəaliyyət göstərməklə elmin inkişafına və alınan nəticələrin istehsalata tətbiqinə öz töhfələrini veriblər.

Hazırda Qarabağın davamlı inkişafının təmin edilməsi üçün Azərbaycan elminin bütün resurslarını səfərbər etmək, regionda müxtəlif istiqamətlərdə multidissiplinar elmi-tədqiqat fəaliyyətlərin bərpasına və intensivləşdirilməsinə nail olmaq istiqamətində tədbirlər görülür. “AMEA-nın “2020-2025-ci illər üzrə inkişaf strategiyasında” və “Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında” tədbirlər planında Qarabağın torpaq və su resurslarının, fauna və florasının öyrənilməsi, aqrar tədqiqatların bərpası və intensivləşdirilməsi məsələləri nəzərdə tutulub. AMEA, o cümlədən akademiyanın Biologiya və Tibb Elmləri Bölməsinin işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı inkişafı ilə bağlı bir sıra təkliflərlə çıxış edib. Bu təkliflərin arasında Qarabağ Elmi-Tədqiqat Bazasının bərpası məsələsi də xüsusi yer tutur. Belə ki, Azərbaycanda elmin koordinatoru funksiyasını yerinə yetirən AMEA-nın Qarabağda Elmi-Tədqiqat Bazası ən müasir tələblərə uyğun qurulmalı, burada aparılacaq elmi-tədqiqat işlərinin səviyyəsi dünya standartlarına cavab verməli, innovativ yanaşmalar tətbiq olunmalı, o cümlədən yüksəkixtisaslı kadr potensialı formalaşdırılmalıdır.

“Qarabağ Elmi-Tədqiqat Bazasının bərpası, tədqiqat imkanları və perspektivləri” mövzusunda çıxış edən AMEA Genetik Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov 40 ilədək nümunəvi elmi tədqiqat fəaliyyəti göstərən Qarabağ Elmi-Tədqiqat Bazasının 1989-cu ildə erməni işğalına qədər 1694 hektar əraziyə malik olduğunu deyib. Bildirilib ki, bazada 30-dan çox yüksək məhsuldar sort və yüzlərlə hibrid yaradılaraq Qarabağ bölgəsində və ölkənin digər iqtisadi rayonlarının təsərrüfatlarında geniş ərazilərdə becərilmişdir. Bu, kənd təsərrüfatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

İllərlə toplanmış zəngin genefondun, bütün əmlakın erməni işğalı nəticəsində talan edilərək məhv olduğu təəssüf hissi doğurur. 1992-ci ildə aparılan əks hərbi əməliyyat tədbirləri nəticəsində torpaq sahələrinin bir hissəsi geri alınıb, lakin nümunəvi bazanın bütün infrastrukturu məhv edilib. 2003-cü ildən bazanın əməkdaşları Tərtər rayonunda fermer təsərrüfatında tədqiqat işlərini davam etdirməyə başlayıb və torpaqların işğaldan azad olunmasından sonra istehsalata tətbiqi istiqamətində işlər aparıblar. Bölgəyə aid aparılan tədqiqat işləri nəticəsində 7 yeni buğda və 2 arpa sortu Dövlət Sort Sınağı Komissiyasına təqdim edilib.

Vətən müharibəsi böyük Qələbə ilə başa çatdıqdan sonra bazanın ərazisində bir ədəd subartezian quyusunun qazılaraq istifadəyə verilməsi tədqiqat işlərinin başlanılmasına, rayonlaşdırılmış sortların ilkin toxumçuluğunun təşkilinə və genişləndirilməsinə imkan verəcək.

Hazırda qarşıda duran ən mühüm vəzifə Qarabağ Elmi-Tədqiqat Bazasının yenidən bərpası və keçmiş ənənəsini, şöhrətini özünə qaytarmaqdır.

Tədbirdə həmçinin Kənd Təsərrüfatı Nazirliyi Bitkiçilik şöbəsinin müdiri İmran Cümşüdovun “Rəqabətqabiliyyətli sortların yaradılmasında müasir innovasiyaların rolu”, AMEA Genetik Ehtiyatlar İnstitutunun şöbə müdiri Xanbala Rüstəmov və Kənd Təsərrüfatı Nazirliyi Əkinçilik Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, AMEA Genetik Ehtiyatlar İnstitutunun aparıcı elmi işçisi Abidin Abdullayevin həmmüəllifi olduqları “Qarabağ iqtisadi rayonunda ərzaq təhlükəsizliyinin təmin edilməsində taxıl bitkilərinin seleksiyası və toxumçuluğunun rolu” mövzusunda məruzələri təqdim olunub.

Daha sonra Qarabağ Elmi-Tədqiqat Bazasının fəaliyyətinin təşkili, gələcək istiqamətlərin müəyyənləşdirilməsi, yeni sortların yaradılması, elektron interaktiv xəritələrin hazırlanması və digər tədbirlərlə bağlı müzakirələr aparılıb, bir sıra təkliflər səsləndirilib. Müzakirələrdə akademik Qərib Məmmədov, AMEA-nın müxbir üzvü İbrahim Əzizov, “Aqro Dairy” MMC-nin icraçı direktoru Vahid Hacıyev iştirak ediblər.

Sonda Qarabağ bölgəsi üçün yaradılmış taxıl sortlarının sərgi nümunələri ilə tanışlıq olub və ilk toxumlar torpağa səpilib.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Koronavirusun yeni variantı hücuma keçir

## “Delta”nın AY.4.2 ştamı nə qədər təhlükəlidir?

*Əvvəli 1-ci səh.*

“Koronavirus” sözü latın mənşəlidir və mənası “tac”dır. Bu adı ilk dəfə insanda koronavirusları aşkar edib öyrənmiş Cuna Almeyda və Devid Tirrell fikirləşmişlər. “Koronavirus” sözündən ilk dəfə mətbuatda 1968-ci ildə “Nature” jurnalında istifadə olunmuşdur. Artıq koronavirusun 45-dən çox növü tapılmışdır.

Son məlumata görə, bu günlərdə Böyük Britaniyada “Delta” ştamının yeni növü - AY.4.2 variantı aşkar edilmişdir. Böyük Britaniyanın “Financial Times” qəzeti Kembricdəki Senger İnstitutunun və Londondakı Genetika İnstitutunun ekspertlərinə istinadən xəbər verir ki, bu mutasiya Hindistan ştamından 10-15 faiz daha yoluxucu ola bilər.

“Mutasiya” sözünə gəldikdə isə, bu ifadədən ilk dəfə 1901-ci ildə niderlandlı botanik Huqo De Friz istifadə etmişdir. Genetikanın banilərindən biri bu qənaətə gəlmişdir ki, bir növ müxtəlif növlərə parçalana bilər. De Friz bu əlaməti mutasiyalar adlandırmışdır. O hesab edirdi ki, bioloji növlər vaxtaşırı mutasiya fazasında olurlar. De Friz sübut etmişdir ki, yeni növlər darvinçilərin düşündüyü fasiləsiz fluktuasion (hərəkətlər) dəyişikliklərin tədricən toplanması vasitəsilə deyil, bir növü digərinə çevirən və dərhal əmələ gələn kəskin dəyişikliklər yolu ilə yaranır.

Ekspertlərin dediyinə görə, Böyük Britaniyada yoluxmaların təqribən 10 faizi yeni variantla bağlıdır. O, fəal şəkildə yayılır. Ötən ayın ortalarından ölkədə koronavirusa yoluxan xəstələrin sayı artır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, Böyük Britaniyada COVID-19-a yoluxma hallarının ümumi sayı 8,4 milyon nəfərə çatmış, 139 minə yaxın insan dünyasını dəyişmişdir.

Son məlumata görə, AY.4.2 yeni ştamı İsraildə tapılmışdır. Onu yaxınlarda Moldovadan qayıtmış 11 yaşlı uşaqda aşkar etmişlər.

Bu virusa həmçinin ABŞ-da və Danimarkada da rast gəlinmişdir.

Moskva Dövlət Universitetinin professoru Aleksey Aqranovski deyir ki, “hazırda “Delta” variantlarından 50-yə yaxın ştam əmələ gəlmişdir. Lakin onlardan heç biri hansısa xüsusiyyətlərinin dəyişməsi hesabına daha rəqabətqabiliyyətli olmamışdır. AY.4.2 variantı isə özünə daha çox diqqət tələb edir. Əgər İngiltərədə COVID-19 xəstəliyinə yoluxma hallarının təxminən 10 faizi bu variantla əlaqəlidirsə, demək, o, yayılmaq üçün potensiala malikdir”.

Lakin AY.4.2-nin “Delta”dan nə qədər daha yoluxucu olması hələ müəyyənləşdirilməlidir. Əgər o, əslində 10-15 faiz daha yoluxdurucudursa, bu, böyük artım deyil. Məsələn, “Delta” ştamı Uhan ştamı ilə müqayisədə 100 faiz (2 dəfə) daha yoluxucudur.

Rusiyalı tibb elmləri doktoru Nikolay Malışev RBK telekanalına bildirib ki, yeni ştamlar adətən insan orqanizminə daha yaxşı uyğunlaşırlar. Bəzən isə belə də olur ki, onlar insana daha az ziyan vururlar. Eyni zamanda yeni variant çox yayılanda daha çox adam xəstələnir, lakin ölüm hadisələri azalır.

“Biz tez-tez viruslar barədə ağıllı məxluqlar kimi danışırıq. Lakin ağıllı virus öldürmək istəmir, bu, ona lazım deyil. Buna görə də demək olmaz ki, sürətlə yayılan virus daha təhlükəlidir”, - deyə ekspert bildirir.

Onu da qeyd edək ki, bu il koronavirusa yoluxan uşaqların sayı artmışdır. Əgər ötən payız uşaqların təxminən 5 faizi xəstələnmişdirsə, hazırda bu rəqəm 10-12 faiz təşkil edir və onun formaları daha aqressivdir. Qarşıdan isə qış fəsli gəlir...

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər qış fəslində dünyada on milyonlarla insan qripə yoluxur. Yoluxan insanların çoxu bir həftə ərzində iş və ya təhsildən kənarda qalırlar. Lakin yuxarı yaş qrupuna aid insanlar xəstəlik nəticəsində ölüm riski ilə üzləşə bilərlər. Məlumdur ki, hər il dünyada yüz minlərlə insan bu xəstəlik nəticəsində dünyasını dəyişir. Lakin hətta inkişaf etmiş ölkələrdə belə ölən insanların qripdən, yaxud qripə bənzər digər xəstəlikdən vəfat etdiyinə dair dəqiq statistika aparılmır.

***Rizvan CƏFƏROV,***
***“Azərbaycan”***






Dünya olduğu kimi

# Azdan çoxa doğru gedən insan ömrü

**Qədim zamanlarda insanlar çox uzun yaşamayıblar. Məsələn, 3300 il əvvəl qədim Misirdə insanın orta ömür uzunluğu 18 il olub. Qeyri-kafi, sağlam olmayan qidalanma səbəbindən onların ömrü 18-20 il sürüb. 300 min il əvvəl aparılan arxeoloji qazıntı zamanı paleolit dövrünə aid aşkarlanmış 22 insan skeletinin 15-nin 14 yaşda öldüyü ortaya çıxıb. Yalnız bir skeletdə insan ömrünün 50-60 yaş arası olduğu məlum olub. Həmin dövrdə insanlar ya xəstəlikdən ölürdü, ya da öldürülürdü.**



İnsanların keçmişdə vaxtından əvvəl ölmələrinin səbəbi təbii ki, onların həyat tərzində axtarılmalıdır. Qədim dövrlərdə bütün yeməklər orqanik olduğu, insanlar daim işlədikləri üçün onların daha sağlam yaşamaq şansı var idi. Ancaq insanın vəhşi təbiətdə yaşaması, varlığı uğrunda mübarizə aparması onun həyatına qısaldıcı təsir göstərirdi.

Fiziki aktivlik bir insanın ömrünün uzanmasına təsir göstərən amil olsa da, qədim Yunanıstanda bir çox mütəfəkkir zehni fəaliyyətin də insan ömrünün uzunluğuna təsir göstərdiyi qənaətində idi. Onlar hesab edirdilər ki, xüsusilə yazmaq, oxumaq ömrü uzadan amillərdən biridir. Beyin qocalığa asanlıqla təslim olmadığı üçün oradan bədənin qalan hissəsinə məlumatların ötürülməsi uzun müddət davam edir.

İnsanın yaşam tərzinin getdikcə dəyişməsi onun ömrünün uzunluğuna da təsir edib. 1796-cı ildə insanın orta ömrünün 24 il olduğu açıqlanır. Təxminən 100 il sonra, yəni 1890-cı illərdə bu hədd iki dəfə artaraq 48 ilə çatıb.

Bu gün dünyanın ən uzunömürlülər ölkəsindən biri sayılan Yaponiyada insanların orta ömrü təxminən 90 ildir. Ölkələrdən asılı olaraq, insanların ömür uzunluğu da dəyişir. Məsələn, dünyanın ən inkişaf etmiş ölkələrindən olan ABŞ-da kişilər üçün gözlənilən ömür müddəti 72, qadınlar üçün 79 il, orta ömür müddəti 77 ildir. Kişi və qadın arasındakı bu fərqin nədən yarandığı tam olaraq bilinmir. Amma bu istiqamətdə araşdırmalar davam edir.

Türkiyənin Ankara Universitetinin Fiziki antropologiya bölümünün rəhbəri, professor Galip Akının sözlərinə görə, XVIII əsrin sonlarından, xüsusilə 1950-ci ildən başlayan sənaye inqilabından sonra insan ömründə yenidən artımlar baş verib. G.Akın bu fikirdədir ki, 2000-ci illərdə insanın orta ömür uzunluğunun 4 dəfədən çox artaraq 80 ili ötməsinin səbəbi onun genetik quruluşundakı dəyişiklikdən qaynaqlanmır: "İnsanların Yer üzündə ilk dəfə göründüyü vaxtdan bu günə qədər onların genetik quruluşlarında genişmiqyaslı bir dəyişikliyin yarandığını demək olmaz. Onların genetik quruluşlarında kiçik dəyişikliklər ola bilər, amma bu dəyişikliyin uzunömürlülüyə təsir etməsi çox uzun müddət çəkir. Burada ən vacib amil ekoloji faktordur. Buna görə də son dövrlərdə ətraf mühitin vəziyyətində tədricən yaxşılaşma müşahidə olunur. Bu yaxşılaşmanın nəticəsi insan ömrünün artaraq 80 ili keçməsidir. Nəfəs aldığımız hava, üzərində gəzdiyimiz torpaq, yaşadığımız Yerin geoloji və topoqrafik quruluşu, sosial-iqtisadi vəziyyət ömür uzunluğuna təsir edən faktorlardandır".

İnsanın genetik quruluşuna görə 120 il yaşama qabiliyyətinə sahib olduğunu deyən professor bildirib ki, ekoloji şəraiti nə qədər yaxşılaşdıra bilsək, insanlar genetik quruluşuna, yəni maksimum həyat sürmə potensialına görə orta hesabla 120 il yaşaya bilər. Bu səbəbdən insanlar ətraflarında müsbət aura yaratmağa çalışmalıdırlar. Bütün səylərin insanın sosial-iqtisadi səviyyəsinin, yaşayış şəraitinin yaxşılaşmasına yönəldilməsi lazımdır.

Alim əlavə edib ki, ətraf mühit - su, torpaq və hava çirklənərsə, gələcəkdə insanın orta ömrünü 80-82 ilə çatdırmaq belə mümkün olmayacaq. İnsan nüvə enerjisi ilə təmasda olarsa, son dərəcə isti və çətin iqlim şəraitində yaşayarsa, ömür uzunluğunun artması ilə bağlı müsbət bir dəyişiklik gözlənilə bilməz. Mövcud içməli suyun üçdəikisinin çirkli olduğunu söyləyən G.Akının sözlərinə görə, hər gün çirkli su içən bir insanın sağlam qalmasını gözləmək bir xəyaldır. Bu səbəbdən ətraf mühiti təmiz saxlamaq və ilk növbədə, təbiəti qorumaq lazımdır.

Araşdırmaçı alim sağlamlığın qorunmasında ruh yüksəkliyinin də son dərəcə əhəmiyyətli olduğu qənaətindədir: "İnsanları insan edən keyfiyyətlərdən biri onun ünsiyyət qabiliyyətidir. Ətrafındakı insanlarla əlaqə qura bilməyən insan tənhadır. İnsana tənhalıq qədər zərər verə biləcək başqa bir səbəbin olmadığını deyə bilərik. Ətrafındakı insanlarla əlaqələr qura bilən bir insan ruhən sağlamdır. Sağlam və güclü qalmaq üçün zehni fəaliyyətin, idmanla müntəzəm məşğul olmağın, immunitet sistemini güclü saxlamağın böyük əhəmiyyəti var. Sağlam və güclü olmaqla uzun bir ömür yaşaya bilmək insanın bunun üçün göstərdiyi səylərdən asılıdır. Sadəcə nəfəs almaq yaşamaq deyil. Aldığımız hər nəfəsin mənasını, dəyərini və əhəmiyyətini bildiyimiz üçün buna uyğun hərəkət etməliyik".

## COVID-19 pandemiyası ömrün azalmasına səbəb olub

**Böyük Britaniyanın Oksford Universitetinin alimləri COVID-19 pandemiyası səbəbindən 2020-ci ildə ömür müddətinin azaldığını müəyyən ediblər.**




Onların apardığı tədqiqatlar zamanı məlum olub ki, Avropa, ABŞ və Çili də daxil olmaqla 29 ölkədən 22-də ömür uzunluğu 2019-cu ilə nisbətən altı aydan çox azalıb.

Əksər ölkələrdə kişilərin ömrünün qadınlara nisbətən daha çox azaldığı müəyyən edilib. Amerikalı kişilərin pandemiyadan daha çox zərər çəkdikləri qeyd edilir. Onların ömürləri 2019-cu ilə nisbətən 2,2 il qısalıb.

## 256 il yaşayan insan

**Ömür uzunluğu ilə bağlı araşdırma aparan bəzi elm adamları təkamül mexanizminin pozulduğu zaman insanların 500 ildən çox yaşaya biləcəyini iddia edirlər.**



Onların fikrincə, hazırda insanların həyatını tarazlayan təkamül mexanizmi insan həyatının 65-80 yaş arasında olmasını təmin edir. Lakin bu mexanizm pozularsa, insan ömrü gözlənildiyindən xeyli uzun ola bilər. Elm adamları bu mexanizmin qırılmasının çox da uzaq olmadığını və texnologiyanın həyat şərtlərini təyin etdiyi zaman onun pozulacağını bildirirlər.

Bəzi mənbələr dünyanın ən nüfuzlu jurnalı olan "Time" jurnalına istinad edərək qeyd edirlər ki, dünyada 256 il ömür sürmüş insan olub. Li Ching-Yuen adlanan bu çinlini 1930-cu ildə həmin jurnal kəşf edib. Jurnalda Çin İmperiyasına aid dərc edilən qeydlərdə Chenqdu Universitetinin professoru Wu Chung-Chienin Li Ching-Yueni 1827-ci ildə 150 yaşına keçməsi münasibətilə təbrik etdiyi yazılmışdı. Daha sonra tapılan sənədlər isə 1877-ci ildə bu çinlinin 200 yaşının təbrik edildiyi göstərilib.

Li Ching-Yuenin bəzi mənbələrdə 1736-da, bəzi mənbələrdə isə 1677-ci ildə doğulduğu bildirilir. Onun 1933-cü ildə öldüyü nəzərə alınarsa, dünyasını dəyişərkən 197 və ya 256 yaşının olması nəticəsinə gəlinir. Təvəllüdünün fərqli olmasına baxmayaraq, o, yenə də dünyanın ən çox yaşayan insanı hesab edilir.

1928-ci ildə "New York Times"ın müxbiri Linin qonşusu olan qoca kişilərlə görüşüb. Bu qocaların çoxu Linin onların babalarının dostu olduğunu söyləyiblər. Li Ching-Yuen 10 yaşından bitkiləri öyrənməyə başlayıb, daha sonralar isə dağ ətəklərində bitki toplayaraq onların ömür uzatma xüsusiyyətlərini öyrənib. O, 1749-cu ildə 71 yaşında döyüş sənəti müəllimi olaraq, Çin ordusuna qoşulub. Linin 23 dəfə evləndiyi, 200-dən çox uşağın atası olduğu və bir insan kimi çox sevildiyi deyilib.

Dostlarının sözlərinə görə, Li Ching-Yuendən uzun ömür sürmənin sirri soruşulduqda o, belə deyib: "Uzun ömür sürmənin sirri təmiz qəlbə sahib olmaq, bir qurbağa kimi oturmaq, göyərçin kimi həyat dolu hərəkət etmək və bir it kimi yatmaqdır".

## Əhalisi ən çox yaşayan ölkə



**Dünyada ən çox uzun ömür sürən insanların yaşadığı ölkə Yaponiyadır. Bu ölkədə hər dörd nəfərdən biri 65 və daha yuxarı yaşdadır. Hindistanda hər 100 nəfərdən cəmi 5-i 65 il və bundan yuxarı ömür sürür. Çində hər 100 nəfərdən 9-nun yaşı 65 və daha çoxdur.**

Finlandiya, Avstriya, Belçika, Estoniya və İspaniyada yaşı 65 və daha yuxarı olan insanlar əhalinin hər 100 nəfərindən 18-ni, Portuqaliya, İsveç və Yunanıstanda 19-nu, Almaniya və İtaliyada 21-ni təşkil edir.

Yaponiya və San Marino dünyada qadınların ən uzun ömür sürdüyü ölkələrdir. Burada qadınlar arasında orta ömür uzunluğu 86 ildir. Fransa, İtaliya, İspaniya və İsveçrədə qadınlar orta hesabla 85 il, Avstraliya, Avstriya, İslandiya, İsrail, Cənubi Koreya, Lüksemburq, Malta, Norveç, Portuqaliya, Sinqapur və İsveçdə 84 il, Belçika, Kanada, Almaniya, Yunanıstan, İrlandiya, Hollandiya, Yeni Zelandiya və Sloveniyada 83 il yaşayırlar. Kişilərin orta ömrü qadınlara nisbətən 5-6 il qısadır. İsveçrə və İslandiyada kişilər orta hesabla 81 il ömür sürürlər ki, bu da dünyada ən yüksək göstərici sayılır. Sonrakı yerləri orta ömür uzunluğu 80 il olmaqla, Avstraliya, Honqkonq, İsrail, İtaliya, Malta, San Marino, Sinqapur və İsveç tutur.

## Dünyanın yeganə uzunömürlülük muzeyi Azərbaycandadır



**Azərbaycan dünyanın yeganə uzunömürlülük muzeyinə evsahibliyi edir. Bu muzey Azərbaycanın Lerik rayonundadır.**

Hələ keçmiş sovet dönəmindən uzunömürlülər diyarı kimi tanınan Azərbaycanda çox yaşayan insanlara ən çox cənub bölgəsində, daha sonra isə İsmayıllı, Tovuz, Gədəbəy, Quba rayonlarında rast gəlinir. Azərbaycanın ən uzun ömür sürən sakininin 168 il yaşadığı deyilən lerikli Şirəli Müslümovun olduğu bildirilir. Azərbaycan Milli Elmlər Akademiyası Fiziologiya İnstitutundan verilən məlumata görə, Lerik sakinləri olan Şirəli Müslümov, Mahmud Eyvazovun adları demək olar ki, dünyada məşhur idi. Lakin onların yaşı verifikasiya edilmədiyindən adları uzunömürlü insan kimi "Ginnesin rekordlar kitabı"na daxil edilməyib.

Son illər ərzində Azərbaycanda yaşı 100 və daha çox olanların sayı artıb. 2015-ci ildə Azərbaycanda yaşı 100 və 100-ü keçmiş 626 nəfər olub. 2019-cu ilin məlumatına görə, bu 1052 olub.

## Dünyanın ən yaşlı sakini

**Hazırda dünyanın ən yaşlı insanı 118 yaşlı yapon Kane Tanakadır. O, 1997 -ci ildə 122 yaşlı fransalı Jeanne Calment öldükdən sonra dünyanın ən yaşlı insanı sayılır. Tanaka bu günə qədər Yaponiyada yaşı təsdiqlənmiş üçüncü ən uzunömürlü yapondur.**



1903-cü ildə doğulan Kane Tanaka vaxtından əvvəl doğulub, ana südü ilə böyüyüb. 1922-ci ildə ailə həyatı quran Tanakanın əri 71 illik evliliklərindən sonra 1993-cü ildə 90 yaşında vəfat edib. Kane 2018-ci ilin sentyabr ayından "Qocalar evi"ndə yaşayır və onun sağlamlıq vəziyyətinin hələ də normal olduğu bildirilir.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*

Sağlıq olsun

# Aman qocalıq

**"Qocalıq qarın yağmağı kimi qəfildən gəlir. Səhər durub görürsən ki, dörd bir tərəf ağa bürünüb". Məşhur fransız dramaturqu Jan Fransua Renyarın da ifadə etdiyi kimi, insanlar doğulur, yaşayır və heç fərqinə varmadan bir də görür ki, yaşlanıb, bu həyatla vidalaşma məqamındadır.**

Ta qədimdən insanlar yaşlanmanın onları bu həyatdan qoparma səbəbi olduğunu biliblər. Buna görədir ki, tarix boyu əbədi yaşamın sirrini öyrənməyə çalışıb, dirilik suyu axtarışına çıxıblar, lakin ən sonda kor-peşman təbiətinmi, Allahınmı, bilinməz, yaranan bu qarşısıalınmaz sirli qanun qarşısında baş əyməli olublar...

Bəli, zaman keçdikcə, istisnasız hər kəsin bədəni yaşlanır. Bəs bunun səbəbi nədir və qarşısını almaq mümkündürmü? Tibb elmi bütün insanlığı düşündürən bu suala hansı cavabları verir?

Hazırda insan ömrünün orta yaş həddi 75 ilə çatıb. Alimlər isə hətta insanların 115 ilə qədər yaşaya biləcəklərinə inanırlar. Belə ki, holland alimləri son 30 il ərzində 75 min insanın məlumatlarını təhlil edərək bu qənaətə gəliblər ki, qadınlar maksimum 115,7, kişilər isə 114,1 il yaşaya bilərlər.

Mütəxəssislər bildirirlər ki, əslində, qocalma zamanla orqanizmdəki hüceyrələrin ölməsindən irəli gəlir. Hüceyrələr zərərli molekullar səbəbindən illər keçdikcə dəyişikliklərə məruz qalır və həmin dəyişikliyi kodlayaraq gələcək nəsillərinə ötürürlər. Bu dəyişikliklər hüceyrənin özü üçün ölümcül olmasa da, digər hüceyrələrdə toplanaraq orqan fiziologiyası baxımından ölümcül ola bilirlər. Hüceyrələr daxili sistemlərin nizamını qurmaq üçün müəyyən molekullara vəzifələr verirlər. Ancaq bu molekullar da atomlardan ibarətdir və bir müddətdən sonra nizamsızlığa uğradıqda, nə qədər səy göstərilsə də, sabitliklərini itirməyə başlayırlar. Bu molekullar funksiyasızlaşdıqda hüceyrə də funksiyasız olur. Bunun nəticəsində zamanla orqanların da funksiyası pozulmağa başlayır. Bu proses qocalma prosesi adlandırılır və təəssüf ki, sonu ölümlə nəticələnir.



### *Hüceyrə yaşlanması*

Yaşlanma ilə əlaqədar elmi məqaləsində türk genetik Meriç Öztürk məlumat verir ki, hüceyrələrimizdə əmələ gələn, bütün funksional molekullar genlərimiz tərəfindən kodlanır və bu kodlardan istifadə edilərək istehsal olunur. Genlər xromosomlar, irsiyyətlə təmin edilən genetik strukturlar ilə bir araya gəlir, ancaq xromosomların bütün bölgələrində kodlaşdırma genləri olmur. Bunlardan biri də "telomer" bölgələridir. Telomerlər xromosomların uclarında yerləşir və onların digər xromosom ucları ilə bağlanmasına maneə törədir, eyni zamanda, xromosomların ucundakı DNT tellərinin qırılmasının qarşısını alır.

Telomerlərin hüceyrə yaşlanması ilə əlaqəli olma xüsusiyyəti, hər hüceyrə bölünməsi əsnasında DNT zəncirlərinin qısalmasıdır. Məməlilərin hüceyrələrindəki telomerlərin uzunluğu orta hesabla 35-40 min baza cütü olur və hər bölünmə ilə təxminən 100 əsas cüt qısalır. Uzun telomerlər daha çox hüceyrə bölünməsinə imkan verir, hüceyrə nə qədər qısa olarsa, bölünmə ehtimalı da o qədər azalır. Bu, yeni hüceyrə meydana gəlməsinin ləngiməsinə və nəticədə orqanın qocalmasına səbəb olur.

### *Daha çox uşaq, daha uzun ömür?*

Simon Fraser Universitetindən Pablo Nepomnasçi və Sindi Barhanın rəhbərlik etdiyi qrup, daha çox uşaq sahibi olmağın telomerlərin uzunluğu ilə bağlı ola biləcəyini ortaya qoyublar. Belə ki, onlar 75 qadın iştirakçının uşaq sayını və telomer uzunluğunu araşdırıblar və məlum olub ki, onların telomer uzunluqları 13 illik fasilələrlə ölçülür. Nəticələr uşaq sahibi olmağın müvəffəqiyyəti ilə uzun telomerlərin olması arasında bir əlaqə olduğunu göstərib. Alimlər hesab edirlər ki, bunun səbəbi hamiləlik dövründə estrogen hormonu ifrazının artmasının telomerlərin uzunluğuna təsir etməsidir.

Elm adamları mitokondriyanın (hüceyrəyə enerji verən orqanoid) da hüceyrə yaşlanmasında rol oynadığını bildirirlər. Hətta bu istiqamətdə aparılan araşdırmalarda hüceyrələrdən mitokondriyanın çıxarılması zamanı zərərli molekulların sayı gənc hüceyrələrdə olduğu kimi azalmışdı.

Bir başqa səbəb isə, yaşlandıqdan sonra bədənin artıq yeni qan hüceyrələri istehsal edə bilməməsidir.

### *Ölümsüzlüyə çatmağı istəmək əvəzinə, xəstəliklərin qarşısını almaq lazımdır*

Nyu York Albert Enşteyn Tibb fakültəsi Yaşlanmanın Araşdırılması Mərkəzinin direktoru Nir Barzilai 100 yaşdan yuxarı insanlarla bağlı araşdırmalar aparıb. Onun gəldiyi qənaətlərdən biri yaxşı xolesterol kimi tanınan HDL-in uzunömürlü insanlarda çox yüksək olmasıdır. Alim bildirib ki, HDL bir növ bədəndə təmizlik rolunu oynayır. Sərbəst lipid hissəciklərini bir yerə toplayır və qaraciyərə ötürərək oradan da safra turşusu olaraq bağırsaqlara göndərir.

N.Barzilai bildirir ki, araşdırmalara əsasən, ortaya çıxa biləcək möcüzə dərmanın əsas məqsədi yaşlanmanı dayandırmaq deyil, insanların sağlam yaşlanmasını təmin etməkdir. O, ölümsüzlüyə çatmaq istəmək əvəzinə qocalığa bağlı xəstəliklərin qarşısını almağın ən yaxşı yanaşma olduğunu deyir.

Mütəxəssislər sağlam bir orqanizmə sahib olmaq üçün sosiallaşmağın, idman etməyin, nizamlı qidalanmağın önəmli olduğunu vurğulayaraq, sağlam bədənin həm də daha uzun yaşamaq demək olduğunu bildirirlər.

Bilirik?

## Ən tez bu orqan qocalır



Ürəkdə orta hesabla 40 yaşında yaşlanma əlamətləri başlayır. Çünki sol mədəciyin divarı qalınlaşır və interventrikulyar bölmə bir qədər genişlənir. Ürəyin dəqiqədə vurduğu qan miqdarında azalma yaranır;

30 yaşından etibarən eşitmə itkisi normaldır. Bu prosesdə qan daşıyan damarların zəifləməsi və əsəb qulağın tez qocalmasına imkan yaradır;

30 yaşından sonra beynin kiçilməsi poblemi ortaya çıxır. Beyinə qan daşıyan damarlardakı deformasiya əlavə olunduqda, öyrənmə sürəti və yaddaş zəifləməyə başlayır;

Gözdə 40 yaşından sonra başlayan qocalma göz bəbəyinin sərtləşməsinin səbəbidir. Bu, gözün reaksiyalarını zəiflədir və görmədə problemlərə yol açır. 50 sm-dən daha yaxını görməkdə çətinliyin yaşanması başlayır. Gözdəki sinir hüceyrələrinin sayındakı azalma görmə keyfiyyətini aşağı salır.

Ağciyərlər ən erkən qocalan orqanlardandır. 20 yaşlarında başlayan dəyişikliklər ağciyərin elastikliyini azaldır və oksigen alınmasını aşağı salır.

Yaşam

## Heç vaxt düşünməyin və deməyin ki, siz yaşlanırsınız

**Bolqar professor, genetik Uilyam Memerski əmin edir ki, insan xəstəliklərinin yaranmasının 66 faizi seçdiyi qidalardan asılıdır. Professor qətiyyətlə bildirir ki, qocalıq təbii proses deyil, xəstəlikdir və biz özümüz qeyri-sağlam qida vərdişlərimizlə onu sürətləndiririk: "Dünyada insanların 70 faizi məhz düzgün qidalanmadığı üçün ölür. Bəşəriyyətin bəlası olan podaqra, insult, infarkt, diabet, xərçəngin müxtəlif növləri kimi xəstəliklərin yaranma səbəbi yediyimiz zərərli məhsullardan yaranır".**



U.Mermerski bildirir ki, sadə qidalanma qaydalarına əməl etməklə dəri və orqanları gənc saxlamaq mümkündür: "Başlıcası ifrata varmaq olmaz. Tərəvəz, meyvə, qatıq, süd, şərab yaşlanmanı gecikdirir. Lakin şərab təbii olmalı və az istifadə edilməlidir. Məsələn, Fransada əti qırmızı şərabla yumşaltmaq ənənəsi var. Bunun sayəsində fransızlar daha sağlam və gümrah olurlar. Quru südlə mayalanmış qatığın heç bir müalicəvi effekti yoxdur. Təbii qatıq daha yaxşı həzm olunan qidadır. O, mədə və yoğun bağırsaq xərçəngi xəstəliyinin qarşısını alır, osteoporozun inkişafını dayandırır".

Məşhur professor özünün uzunömürlülük reseptini də təqdim edir:

- çox kalorili məhsullar yeməyin;
- hər gün bir alma yeyin;
- su və bitki çayları için;
- aktiv və hərəkətli olun;
- hər gün duş qəbul edin;
- sərin otaqda yatın;
- istirahət günlərində piyada gəzin və velosiped sürün;
- özünüzü sizi sevən dostlarla əhatə edin, çoxlu gülün;
- heç vaxt düşünməyin və deməyin ki, siz yaşlanırsınız.

Faydalıdır

## Cavanlığın sirri

**Təbiətdə qocalığın qarşısını alan, hətta prosesi tərsinə çevirən tərkibində antioksidantlar olan çox məhsullar var. Aşağıda sadaladıqlarımız bu məhsulların ön sırasında gələnlərdir:**



**Sarıkök** - yaşlanmaya qarşı savaşan B1, B2, B3, C və K vitaminləri, kalsium, dəmir, fosfor və yodla zəngindir. Tərkibindəki efir yağları, fenol birləşmələr sağlam hüceyrələri məhv edən sərbəst radikalların-molekulların təsirini zəiflədir.

**Sarımsaq** - orqanizmi cavanlaşdırmağa qadirdir. Tərkibində çoxlu mikroelementlər, efir yağları və antioksidantlar var. Bu məhsul insanın cavan qalmasına, həm zahirən, həm də daxilən sağlam olmasına kömək edir. Sarımsaq zərərli xolesterinin səviyyəsini aşağı salır, qanın təbii laxtalanmasına kömək edir. Bu şəfalı tərəvəzdən ayrılan izotiosianat maddəsi xərçəng hüceyrələrinin əmələ gəlməsinin qarşısını alır.

**Balıq** - omeqa 3-ün əvəzedilməz qaynağıdır. Uzun zamandır elmə məlumdur ki, bu doymamış yağ turşuları anti-iltihab xassələrə malikdir, dəri, saç və dırnaqların qocalması ilə mübarizə aparır, hüceyrələrdə qan dövranını surətləndirir.

**Balqabaq tumları** - vitaminlər, amin turşuları və mineralların deposudur. Bu tumların tərkibində fosfor, maqniy, niasin, fol turşusu, B qrup vitaminlər, eyni zamanda, A, C, D və K vitaminləri mövcuddur. Həmçinin cavanlığın ömrünü uzadan E vitamini ilə zəngindir. Bu tumların tərkibində vacib mikroelement olan kollagenin yaranmasına təsir edən sink də mövcuddur. Kollagen dəri hüceyrələrinin yenilənməsinə səbəb olur, onun elastik olmasına, saçların və dırnaqların, damarların sağlamlığına müsbət təsir göstərir.

**Kakao** - araşdırmalara əsasən, gündəlik bu ətirli içkidən istifadə edənlər daha gec qocalırlar. Kakao dəri hüceyrələrinin normal funksiya göstərməsinə təsir edir və onun cavanlığını qoruyub saxlayır. Bu içkinin tərkibində A, PP, E və B vitaminləri, həmçinin kalsium, sink, ftor, maqnium və kaliy mineralları mövcuddur.

Psixologiya

## Əsl, yoxsa hiss etdiyiniz yaş?

**İnsanın pasportda qeyd ediləndən əlavə, psixoloji yaşının da olduğu reallıqdır. Ətrafımızdakı çox insanların sənəddə göstərilən yaşından daha gənc və ya yaşlı göründüyünü çox müşahidə etmişik. Aparılan araşdırmalar bunun həyat boyu inkişaf edən bir prosses olduğunu göstərir.**



Uşaqlar və gənclər adətən özlərini həqiqi yaşlarından daha böyük hiss edirlər. Lakin 25 yaşlarında bu dəyişir; insan özünü olduğundan daha gənc hiss etməyə başlayır. 30 yaşına çatan zaman bu hiss insanların yüzdə 70 faizinə hakim olur. Vaxt keçdikcə həqiqi yaş ilə hiss edilən yaş arasındakı fərq gedərək artır.

Montpellier Universitetindən olan Yannick Stephen 17 min orta yaşlı və yaşlı insanla bağlı uzun müddət toplanan məlumatları araşdırdığı zaman çox insanın həqiqi yaşı ilə hiss etdiyi yaş arasında 8 illik fərq olduğunu görüb. İnsanın özünü 8-13 yaş daha yaşlı hiss etməsi həm ölüm riskini (yüzdə 18-25 faiz), həm də xəstəlik yükünü artırır. Y.Stephen həkimlərin bütün xəstələrə hiss etdikləri yaşı soruşaraq gələcəkdə mümkün sağlamlıq risklərinin daha tez müəyyən ediləcəyinə və buna uyğun planların hazırlanacağına inanır.

Bəzi psixoloqlar özünü olduğundan daha gənc hiss etməyi, yaşlanma mövzusundakı mənfi fikirlərdən qorunmaq məqsədilə inkişaf etdirilmiş müdafiə instinkti olaraq qəbul edirlər.

Həmçinin tədqiqatçılar iddia edirlər ki, uzunömürlülük məsələsində genetika və cavanlaşdırıcı vasitələr açar rol oynamır. Qocalma prosesi birbaşa beyinlə əlaqəlidir.

Müasir elm və minlərlə tədqiqatlar sübut edib ki, şən və daim axtarışda olan insanlar daha uzun yaşayır və daha gözəl görünür. Psixoloji stabillik gənc qalmağın təminatıdır. Dəyişikliklərə və çətinliklərə sakitcə uyğunlaşa bilən, problemlərini çox ürəyinə salmayan insan daha gənc qalır. Xoşbəxt insanlarda üz qırışları tamam fərqli şəkildə formalaşır, qırışlar daha az nəzərə çarpır və onlar həmişə cəlbedici görünürlər. Yaxşını görmək bacarığı, yumor qabiliyyəti və hər açılan sabahlar üçün minnətdarlıq hissi psixoloji gəncliyin vədidir. Bütün bunlar beyində baş verən bir sıra hormonal və neyrokimyəvi proseslərə bağlıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Türkiyə ABŞ-dan F-16 təyyarələrinin alınması proseduruna başlayıb

Türkiyənin ABŞ-dan F-16 qırıcı təyyarələrini satın alması proseduru başlanıb.

AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.

"F-16 təyyarələrinin alınması ilə bağlı texniki işlərə başlanılıb. Biz bu prosesi yaxından izləyirik. Türkiyənin güclənməsi həm də NATO-nun güclənməsi deməkdir", - deyə Hulusi Akar bildirib.

Onun sözlərinə görə, Türkiyənin müdafiə sənayesində milli məhsulların nisbəti 80 faizə yaxınlaşıb. Buna baxmayaraq, xaricdən alınmalı məhsullar da olduğunu qeyd edən nazir deyib: "Əlimizdə olan F-16 təyyarələrini dəyişməliyik. Strateji müttəfiqimiz, dostumuz ABŞ-la həm "Block 70 Viper F16" təyyarələrinin tədarükü, həm də bəzi təyyarələrin modernizə edilməsi üçün texniki işlər başlanılıb".

Qeyd edək ki, Türkiyə Rusiyadan S-400 zenit-raket kompleksləri aldıqdan sonra ABŞ Ankaraya təzyiq göstərməyə başlayıb və ona beşinci nəsil F-35 təyyarələrini satmaqdan imtina edib. Lakin bu, əks-effekt yaradıb və son vaxtlar Ankaranın Moskvadan yeni nəsil təyyarələr almaq imkanlarını nəzərdən keçirdiyi barədə məlumatlar yayılıb.

# Beynəlxalq aləm

## Çində zavodda baş verən partlayışda 4 nəfər ölüb, 3 nəfər yaralanıb



Çinin Daxili Monqolustan muxtar bölgəsində kimyəvi məhsullar istehsal edən zavodda baş verən partlayışda azı 4 nəfər ölüb, 3 nəfər müxtəlif dərəcədə bədən xəsarəti alıb.

AZƏRTAC bölgə hökumətinin məlumatına istinadla xəbər verir ki, sənaye zonalarından birində yerləşən zavoddakı hadisə oktyabrın 22-də axşam saat 11-də baş verib. Partlayış nəticəsində yaranan güclü yanğının söndürülməsi təxminən 2 saat davam edib. Hadisə yerinə cəlb olunan xilasedicilər 4 nəfərin meyitini tapıblar, yaralanan 3 nəfərdən birinin vəziyyəti isə ağırdır.

Hadisənin hansı səbəbdən baş verdiyi hələlik bilinmir.

## Aİ sərhədlərdə miqrantlara qarşı tikanlı məftillər və divarların inşasını maliyyələşdirməyəcək



Avropa İttifaqı (Aİ) qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün sərhədlərdə tikanlı məftillər və divarların inşası üçün maliyyə vəsaiti ayırmayacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen Aİ-yə üzv ölkələrin dövlət və hökumət başçılarının sammitinin yekunlarına dair Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə keçirdiyi mətbuat konfransında deyib.

Avrokomissiyanın prezidenti sammitdə qeyri-qanuni miqrasiya ilə mübarizə üçün "fiziki maneələr" kimi tədbirlərin görülməsinin müzakirə edildiyini bildirib: "Lakin Avropa Komissiyası və Avropa Parlamenti miqrasiya ilə mübarizə tədbirləri çərçivəsində tikanlı məftillər və divarların inşası üçün maliyyə vəsaitinin ayrılmaması məsələsində həmfikirdir".

Aİ Şurasının prezidenti Ş.Mişel isə Avropa Komissiyasına miqrasiya ilə mübarizə tədbirlərinə dair yeni təkliflər təqdim etdiklərini bildirib.

Qeyd edək ki, Yunanıstan, Avstriya, Macarıstan, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Litva, Latviya, Slovakiya və Polşanın daxili işlər və ya miqrasiyadan məsul nazirləri birgə məktub imzalayaraq Avropa Komissiyasından Aİ sərhədlərini miqrantlara qarşı "fiziki maneələr"lə gücləndirməyi tələb etmişdilər.

## Mərkəzi Avropa ölkələri koronavirus böhranından sonrakı iqtisadi dirçəliş imkanlarını müzakirə ediblər



Mərkəzi Avropa ölkələrinin xarici işlər nazirləri ölkələri koronavirus böhranından sonra iqtisadi dirçəlişin təmin edilməsi üçün Vyanada bir araya gəliblər.

AZƏRTAC xəbər verir ki, "Central Five" formatının (Avstriya, Çexiya, Macarıstan, Sloveniya və Slovakiya) növbəti görüşünün gündəliyində ixracyönümlü iqtisadiyyata malik Mərkəzi Avropa ölkələrinin iqtisadi perspektivləri dayanır.

Avstriyanın xarici işlər naziri Mixael Linhartın dəvəti əsasında Vyanada keçirilən görüşdə İvan Korçok (Slovakiya), Yakub Kulhanek (Çexiya), Anje Loqar (Sloveniya) və Piter Siyyarto (Macarıstan) iştirak ediblər. Görüşdən öncə M. Linhart bildirib ki, iqtisadi dirçəlişə nail olmaq üçün artıq şirkətlərin fəaliyyətinin dəstəklənməsinə fokuslanmağın vaxtı yetişib.

Eyni zamanda, regional əməkdaşlığın gücləndirilməsi, eləcə də regiondakı digər dövlətlərlə, xüsusilə Rusiya ilə əlaqələrin intensivləşdirilməsinin vacibliyi qeyd edilib.

Tərəflər ixrac potensialını gücləndirmək və əməkdaşlığı dərinləşdirmək üçün noyabrın 1-də Dubayda "Dubai Expo 2020" sərgisində birgə iştirakı müzakirə ediblər.

Görüş çərçivəsində həmçinin Avstriya İqtisadi Tədqiqatlar İnstitutu (WIFO) tərəfindən Mərkəzi Avropa regionunda iqtisadi şansların dəyərləndirilməsi mövzusunda təqdimat keçirilib, yeni ideyalar diqqətə çatdırılıb.

"Central Five" qrupu ötən ilin əvvəlində Avstriyanın keçmiş xarici işlər naziri Aleksander Şallenberqin təşəbbüsü ilə təsis olunub. Təşəbbüsün məqsədi Şengen məkanında sərhəd nəzarətinin tətbiq olunduğu zaman Avstriyanın şərq qonşuları ilə sıx ünsiyyətinin gələcəkdə də davam etdirilməsini təmin etməkdən ibarətdir. Qrup üzvləri mütəmadi şəkildə ortaq mövzularda görüşlər keçirir, son görüş isə iyul ayında Avropa İttifaqı Şurasına sədrlik edən Sloveniyada baş tutub.

## "Qazprom" Almaniyaya "Şimal axını-2" ilə heç bir problemin olmayacağını vəd edir



"Şimal axını-2" Baltik qaz kəmərinin istismarı üçün icazə alındığı təqdirdə, ən qısa müddətdə doldurula bilər və Avropaya yanacaq tədarükündə heç bir zaman fasilə olmayacaq.

AZƏRTAC xəbər verir ki, Almaniya hökumətinə bu cür siqnallar Rusiyanın "Qazprom" dövlət konserni tərəfindən gəlməyə başlayıb.

Moskva Almaniyaya sürətli qaz tədarükü vəd edib və prinsipcə icazə əldə edildikdən sonra artıq ertəsi gün işə başlamaq olar. Almaniya Federativ Respublikasının Federal Şəbəkə Agentliyi, Yeni ildən əvvəl Rusiyadan Almaniyaya hər il 55 milyard kubmetrə qədər təbii qazın veriləcəyi boruların istismarı üçün lisenziya verilməsi barədə qərar verməlidir.

Birinci boru artıq qazla doldurulub. İkinci sütunun qazla doldurulması dekabrın ortalarında və ya sonunda tamamlanacaq. İndi hamı yuxarıdakı agentliyin qərarını gözləyir.

## Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir



Azərbaycanda oktyabrın 24-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 12-14°, gündüz 18-21° isti olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, oktyabrın 24-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da bəzi meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 20-25° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 8-13° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 8-13° isti, dağlarda 2-4° şaxta, gündüz 0-3° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-10°, gündüz 16-21° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-9°, gündüz 15-20° isti, dağlarda gecə 2-6°, gündüz 12-17° isti olacağı ehtimal edilir. Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 18-23° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-13°, gündüz 18-21° isti, dağlarda gecə 7-9°, gündüz 13-17° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## Azercell abunəçilərinin nəzərinə

23.11.2021-ci il tarixdən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "Sadə 2" tarif paketi ləğv ediləcək. Qeyd olunan tarixə kimi "Sadə 2" tarif paketindən istifadə edən abunəçilər tarif dəyişikliyinə görə pul ödəmədən "Azercellim", "Bölgə" və "GəncSim" tariflərinə qoşula bilərlər. Göstərilən tarixədək tarif dəyişikliyi edilmədiyi halında "Sadə 2" tarif paketi çərçivəsində təqdim edilən istifadə imkanının qalığı sıfırlanmaqla ləğv ediləcək və müvafiq tarif paketi avtomatik qaydada (tarif dəyişikliyinə görə xidmət haqqı tutulmadan) "Azercellim" tarif paketi ilə əvəz ediləcək.

**Qeyd: Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**


## *FHN:* "Lənkəran şəhərində Xəzər dənizinin sahilə yaxın sularında mina aşkarlanıb"

Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - qaynar telefon xəttinə Lənkəran şəhəri ərazisində Xəzər dənizinin sahilə yaxın sularında partlayış təhlükəli əşyanın aşkarlanması barədə məlumat daxil olub.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar hadisə yerinə dərhal nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin pirotexniklər qrupu cəlb edilib.

İlk növbədə, ərazidəki insanların təhlükəsiz məsafəyə uzaqlaşdırılması təmin olunub və kənar şəxslərin əraziyə girişi müvəqqəti məhdudlaşdırılıb.

Sonra pirotexniklər tərəfindən hadisə yerinə baxış zamanı aşkarlanmış partlayış təhlükəli əşyanın partladıcısı olmayan döyüş tətbiqinə yararlı TM-57 tank əleyhinə mina olduğu müəyyənləşib. Pirotexniklər istehkamçı qarmağından istifadə etməklə minanın altında "sürpriz" qurğunun olmadığına əmin olduqdan sonra mina yerindən götürülüb və zərərsizləşdirilməsi üçün Xüsusi Riskli Xilasetmə Xidmətinin xüsusi təyinatlı avtonəqliyyat vasitəsilə ərazidən kənarlaşdırılıb.

Hadisə yerində və yaxın ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkarlanmayıb.

Bundan başqa, FHN-in 112 - qaynar telefon xəttinə Sumqayıt şəhərində "Azərişıq" ASC tərəfindən aparılan qazıntı işləri zamanı döyüş sursatının aşkarlanması barədə daxil olmuş məlumat əsasında nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin pirotexnikləri tərəfindən əraziyə keçirilmiş baxış zamanı aşkar olunmuş sursatın partladıcıları olmayan, lakin döyüş tətbiqinə yararlı üç ədəd F-1 əl qumbarası olduğu müəyyənləşdirilib. Qumbaralar pirotexniklər tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb.

Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar olunmayıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə ustad sənətkar, Azərbaycanın Xalq artisti

**CANƏLİ ƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Fariz Şirinov Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Simran Həsənov, Xalıq Rəhmanov, Məhyəddin Əbdülov və Süleyman Mehdiyev dostları

**İLQAR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun həyat yoldaşı Esmira Hüseynovaya dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1988
Qiyməti 40 qəpik